www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 1 iyul 2016-cı il Cümə № 143 (6464) Qiyməti 60 qəpik

**Xəbər**

## Göyçayda şok qətl: səhv saldığı adama 16 bıçaq vurdu

yazısı səh.15-də

**Gündəm**

### Türkiyəni ürəyindən İsrailə görəmi vurdular?



Aeroportdakı terrorla bağlı müəmmalar hələ qalır; terrorçuların Rusiya, Qırğızıstan və Özbəkistan vətəndaşı olduğu deyilir

yazısı səh.5-də

### ABŞ keçmiş diplomatlarına niyə nəzarət edə bilmir?

yazısı səh.9-da

### Azərbaycanlı turistlər Türkiyəyə biletlərini ləğv etdirir

yazısı səh.11-də

### Azərbaycanın Ukraynadakı yeni səfiri ilə bağlı müəmma

yazısı səh.12-də

### Masonların Bakı toplantısı barədə yeni iddialar

yazısı səh.6-da

### Tale Bağırzadənin mübahisəli statusu nə?

yazısı səh.3-də

### Maliyyə Nazirliyinin "MTN yoxlaması" bitdi

yazısı səh.6-da

### "Kredit oliqarxları"nın əmlakları hərracda su qiymətinə satıla bilər

yazısı səh.12-də

### Biznesmenin qətlində günahlandırılan Rusiya vətəndaşlığı almaq istəyir

yazısı səh.11-də

**Ramazan ayının 25-ci günü**

İftar 20.31. İmsaq 03.12-dək (QMİ)

25-ci günün duası: "İlahi, məni bu gün dostlarını istəyən və düşmənlərini düşmən sayanlardan qərar ver! Məni sonuncu Peyğəmbərin (s) din və şəriətini üstün tutub, ona gözəl əməl edənlərdən qərar ver! Ey peyğəmbərlərin qəlblərini hər bir sıxıntı və sapqınlıqdan qoruyan Allah!"

İftar duası: "Allahım, Sənin rizan üçün oruc tutdum, Sənə inandım, Sənə güvəndim. Sənin ruzinlə iftar açır və Sənə təvəkkül edirəm. Ey bağışlayan Allah, günahlarımı bağışla".

ALLAH ORUCUNUZU QƏBUL ELƏSİN!

## Dostlar məmnun, düşmənlər üzüntü içində...

# RUS-TÜRK BARIŞIĞI ERMƏNİSTANI YASA BATIRDI - MÜHÜM GƏLİŞMƏ

Barışıq iki ölkə ilə yanaşı, Qarabağ üçün də təzə səhifə aça bilər, Ərdoğan-Putin anlaşması münaqişənin həllində pozitiv gözlənti vəd edir; Ermənistan hava məkanını rəsmən Rusiyaya verdi - tezləşən qərarın pərdəarxası...




yazısı səh.8-də

# Varlılarımızın pulları Britaniyada batır

Funt sterlinqin dəyərdən düşməsi azərbaycanlı oliqarxların da milyonları itirməsi deməkdir; sabiq maliyyə naziri müraciət etdi: "Vəsaitlərini çıxarsınlar və öz ölkəmizə yatırsınlar"

yazısı səh.9-da



### Sorosun Azərbaycana hücuma keçməsinin sirri

yazısı səh.5-də



*Elçin Şıxlı:*

### "Mənim nəzərimdə iki əjdaha var"

yazısı səh.10-da



### Paşa Qəlbinur "DAK-ı parçalayır" ittihamına cavab verdi

yazısı səh.3-də



## Prezidentlər Parisdə görüşəcəklər

**Azərbaycan və Ermənistan prezidentlərinin növbəti görüşü Parisdə keçiriləcək. Bu barədə Azərbaycan XİN rəhbəri Elmar Məmmədyarov Almaniya XİN rəhbəri Valter Ştaynmayerlə birgə mətbuat konfransında bildirib.**

Məmmədyarovun sözlərinə görə, bu görüşün keçirilməsi ideyası Fransaya aiddir və Bakı buna etiraz etmir. Eyni zamanda o, bu görüşün gündəliyini və tarixini açıqlamayıb.

Xatırladaq ki, son həftələr rəsmi Paris dəfələrlə öz ərazisində prezidentlərin görüşünü təşkil etməyə hazır olduğunu bildirib. Bu bəyanatlar Azərbaycan və Ermənistan prezidentlərinin Rusiya prezidentinin iştirakı ilə keçirilən Sankt-Peterburq görüşündən sonra səslənib.

## Prezident DİN zabitlərinə ali xüsusi rütbələr verib

**Azərbaycan prezidenti İlham Əliyev Daxili İşlər Nazirliyinin zabitlərinə ali xüsusi rütbələrin verilməsi haqqında sərəncam imzalayıb. (APA).**

Polis polkovniki Zaur Natiq oğlu Abdullayevə və polis polkovniki Elçin Hidayət oğlu Həsənova polis general-mayoru ali xüsusi rütbəsi verilib.

## ARDNF devalvasiya nəticəsində əldə etdiyi gəliri açıqlayıb

**Azərbaycan Dövlət Neft Fondu (ARDNF) ötən il baş verən devalvasiya nəticəsində əldə etdiyi gəlirin həcmini açıqlayıb. "APA-Economics" fondun 2015-ci il üzrə hesabatına istinadən xəbər verir ki, 2015-ci ildə Mərkəzi Bank tərəfindən həyata keçirilmiş manatın devalvasiyası çərçivəsində ARDNF-nin investisiya portfelinə daxil olan valyuta və aktivlərin manat ifadəsi ilə dəyərinin artması səbəbindən fondun ümumilikdə 23 mlrd. 217,8 mln. manat, o cümlədən ABŞ dolları, avro, ingilis funt sterlinqi və digər valyutaların manata qarşı məzənnəsinin artması ilə əlaqədar 22,501 mlrd. manat büdcədənkənar gəliri yaranıb.**

Xarici valyuta və aktivlərin yenidən qiymətləndirilməsi səbəbindən qızıl portfelinin qiymətinin artması ilə əlaqədar 716,8 mln. manat büdcədənkənar gəlir yaranıb.

Bundan başqa, 2015-ci ildə ARDNF-nin investisiya portfelinə daxil olan valyutaların dollara qarşı məzənnələrinin və qızılın qiymətinin dəyişməsindən yaranan fərq üzrə 1 mlrd. 998,2 mln. dollar məbləğində büdcədənkənar xərcləri yaranıb.

## Putin: "Türkiyə Rusiyadan üzr istəyib"

**"Türkiyə Rusiyadan üzr istədi, hazırda tərəflər münasibətlərin düzəlməsi üçün addımlar atır". APA-nın Moskva müxbirinin verdiyi məlumata görə, bunu Rusiya prezidenti Vladimir Putin deyib. Rusiyanın xarici ölkələrdəki səfirləri ilə keçirilən görüşdə çıxış edən V. Putin dünən Türkiyə prezidenti ilə aralarında olan telefon danışığına toxunub: "Ankara Rusiyadan üzr istəyib. İki ölkə arasında münasibətlər yenidən qurulacaq. Yaxın vaxtlarda Moskva ölkələr arasında ikitərəfli əməkdaşlığın bərpa olunması üçün tədbirlər görəcək".**

## ATƏT sədri Saakyanla görüşdü

**ATƏT-in fəaliyyətdə olan sədri, Almaniyanın xarici işlər naziri Frank Valter Ştaynmayer Ermənistana səfəri çərçivəsində dünən səhər İrəvanda Dağlıq Qarabağ separatçılarının lideri Bako Saakyanla görüşüb.**

APA-nın məlumatına görə, görüşdə Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasına dair fikri mübadiləsi aparılıb, yaranmış vəziyyətdən çıxış yolları müzakirə olunub. Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev Almaniyanın xarici işlər üzrə federal naziri, ATƏT-in fəaliyyətdə olan sədri Frank Valter Ştaynmayerin Ermənistanda Bako Saakyanla görüşünü şərh edib.

H. Hacıyev APA-ya bildirib ki, Ştaynmayerin Bako Saakyanla görüşü Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin erməni icması ilə görüş xarakteri daşıyır.

Azərbaycana səfər müddətində Ştaynmayer Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin Azərbaycanlı icmasının nümayəndələri ilə də görüşəcək, həmçinin məcburi köçkünlər üçün tikilmiş yaşayış məntəqəsi ilə tanış olacaq.

Qeyd edək ki, ATƏT sədrinin iyunun 29-da regiona səfəri başlayıb. O, dünən Ermənistanda görüşlər keçirib, iyunun 29-da axşam isə Azərbaycana gəlib. İyulun 1-də Ştaynmayer Gürcüstana səfər edəcək.

# Dünya Bankı Azərbaycana yenə kredit verəcək

**Dünya Bankı (DB) 2016-cı maliyyə ilində (2015-ci il iyulun 1-dən 2016-cı ilin 30 iyun tarixinə qədər) Azərbaycana 207 milyon dollara yaxın kreditin verilməsini təsdiqləyib.**




Bu barədə "İnterfaks-Azərbaycan"a bankdan bildiriblər.

"DB 2016-cı maliyyə ilində 2015-ci maliyyə ilində verilən 300 milyon dollara qarşı Azərbaycana 207 milyon dollara yaxın kreditin verilməsini təsdiqləyib", - bankdan bildiriblər.

Ümumilikdə 2011-2016-cı illərdə DB Azərbaycana 892 milyon dollar məbləğində kreditin təqdim edilməsini təsdiqləyib.

2016-cı maliyyə ilində DB Azərbaycana iki əlavə-Bakı-Şamaxı yolunun genişləndirilməsinə 140 milyon və "Məcburi köçkünlərin gəlirlərinin artırılması və həyat şəraitinin yaxşılaşdırılmasına dəstək" layihəsinə 66,7 milyon dollar kreditin verilməsini təsdiqləyib.

Azərbaycan 1992-ci ildən DB-nin üzvüdür. DB indiyə qədər 55 layihənin həyata keçirilməsi üçün Azərbaycana 3 milyard dollardan artıq kreditin ayrılmasını təsdiqləyib.

Hazırda 11 layihə həyata keçirilir.

## "Hər 100 manatın 80 manatı müəllimlərin əmək haqqına sərf edilir"

**"Ümumilikdə ali təhsil sistemində ali məktəblərin gəlirlərinin təxminən 80 faizi əmək haqqı fonduna keçir. Yəni hər 100 manat təhsil haqqının 80 manatı müəllimlərin əmək haqqına, qalan xərclər məktəbin digər xərclərinə sərf edilir".**

Bunu Maarifçi Tələbə Kredit Fondunun ilk kreditlərini alan tələbələrə sertifikatların təqdim olunması mərasimində çıxış edən təhsil naziri Mikayıl Cabbarov deyib.

Ali məktəblər arasında bu rəqəmin dəyişə bilməsinin mümkünlüyünü qeyd edən nazir bildirib ki, ali məktəblərin gəlirlərinin qalan hissəsi əsaslı təmirə, maddi-texniki bazanın maliyyələşməsinə və digər işlərə sərf edilir.

M.Cabbarovun sözlərinə görə, ali məktəblər artıq bir neçə ildir ki, özünümaliyyələşdirmə sisteminə keçiblər: "Onların maliyyələşdirilməsi müstəqil şəkildə həyata keçirilir. Doğrudur , təhsil sistemi prioritet olduğuna görə dövlət tərəfindən bu sahəyə kifayət qədər sərmayə yönəldilir. Amma bu, daha çox ümumtəhsil və digər pillələrə aid olur, yeni universitetlərə lazım olan maddi-texniki bazanın yaradılması üçün edilir".



## İyulda 41 dərəcə isti gözlənilir

**İyul ayında Azərbaycan ərazisində havanın orta aylıq temperaturunun iqlim normasına yaxın, bəzi yerlərdə isə bir qədər yüksək olacağı gözlənilir.**

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən APA-ya verilən məlumata görə, aylıq yağıntının miqdarının əsasən iqlim normasına yaxın, bəzi yerlərdə isə bir qədər çox olacağı ehtimalı var.

Bakıda və Abşeron yarımadasında orta aylıq temperaturun 26-28 dərəcə isti (gecələr 21-26, gündüzlər 30-35 dərəcə isti, bəzi günlərdə 37-39 dərəcəyədək yüksələcək) olacağı gözlənilir ki, bu da iqlim normasına yaxın və bir qədər yüksəkdir.

Aylıq yağıntının miqdarının iqlim normasına yaxın (norma 2-3 mm) olacağı gözlənilir.

## Sankt-Peterburqda danışıqlar konkret sənəd əsasında aparılıb

**Sankt-Peterburqda Azərbaycan, Ermənistan və Rusiya prezidentlərinin görüşündə Qarabağ nizamlanması dünən substantiv (predmetli) danışıqlar başlayıb. Bu barədə dünən Azərbaycan XİN rəhbəri Elmar Məmmədyarov almaniyalı həmkarı, ATƏT-in fəaliyyətdə olan sədri Frank-Valter Ştaynmayerlə birgə mətbuat konfransında bildirib.**

Nazirin sözlərinə görə, "üzərində iş aparılan sənəd var". "Biz bu istiqamətdə işləsək, sülhə nail ola bilərik", deyə Məmmədyarov bildirib.

Münaqişənin nizamlanmasında Rusiyanın rolu və Moskvanın münaqişə tərəflərinin silahla təchiz etməsi haqqında suala cavabda Məmmədyarov deyib ki, Rusiya regiona yaxın ölkədir, Cənubi Qafqazda sabitlik onun üçün əhəmiyyət kəsb edir və o, bunun üçün səy göstərir.

Məmmədyarov qeyd edib ki, Azərbaycan təkcə Rusiyadan deyil, digər ölkələrdən də silah alır və bu, tamamilə təbiidir, belə ki, ölkənin əraziləri işğal altındadır, azərbaycanlı əhaliyə qarşı isə etnik təmizləmə həyata keçirilib.

## 3 ay əvvəl girov götürülmüş azərbaycanlı iş adamı azad olunub

**Ukraynada 3 aya yaxındır girov götürülmüş azərbaycanlı iş adamı azad olunub. Məlumata görə, bu şəxs Gürcüstanda doğulmuş Sədiyar adlı Azərbaycan vətəndaşıdır. (APA).**

Uzun müddətdir Ukraynada biznes fəaliyyəti ilə məşğul olan iş adamı Kiyevdə gündüz saatlarında ailəsi ilə restorana girərkən maskalı şəxslər tərəfindən qaçırılıb. Onun hansı yolla azad olunduğu təhlükəsizliyi baxımından açıqlanmır.

Azərbaycanın Ukraynadakı səfirliyindən isə istər bu hadisə, istərsə də son günlər bu ölkədə hücuma məruz qalan azərbaycanlı iş adamları ilə bağlı məlumat almaq mümkün olmayıb.


**"Qaya Mətbuat Yayımı" MMC!**

**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Müsavat" - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.

**Telefonla zəng etməyiniz kifayətdir: Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur.




## Lavrov Bakıya gəlir

**"Rusiya xarici işlər naziri Sergey Lavrov iyunun 4-də İrəvana səfər etdikdən sonra Bakıya gələcək".**

Virtualaz.org-un məlumatına görə, bunu Azərbaycan xarici işlər naziri Elmar Məmmədyarov almaniyalı həmkarı, ATƏT-in fəaliyyətdəki sədri Frank Valter Ştaynmayerlə birgə keçirdiyi brifinqdə deyib.

Nazir onu da əlavə edib ki, prezidentlər səviyyəsində Dağlıq Qarabağ üzrə növbəti görüşün keçirilib-keçirilməyəcəyi onun səfərindən asılı olacaq.

## Bakıda bir neçə evdə fahişəxana aşkarlandı

**Daxili İşlər Nazirliyi Bakıdakı əxlaqsızlıq yuvaları ilə bağlı məlumat yayıb.**

Virtualaz.org nazirliyin mətbuat xidmətinə istinadən xəbər verir ki, İnsan Alverinə Qarşı Mübarizə Baş İdarəsi əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri nəticəsində Ucar rayon sakini Məlahət Abdullayevanın paytaxtın Nizami rayonu ərazisində kirayədə yaşadığı mənzildə əxlaqsızlıq yuvası təşkil etməsi müəyyən edilib.

Bundan başqa, Bakı şəhər sakini Rövşən Fətullayevin və Tərtər rayon sakini Rauf Əhmədovun paytaxtın Nizami rayonu ərazisindəki mənzillərində də əxlaqsızlıq yuvaları təşkil etmələri üzə çıxarılıb. Hər iki faktla əlaqədar cinayət işi başlanıb.


**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**

YENİ MÜSAVAT
N 143 (6464) 1 iyul 2016

# Paşa Qəlbinur "DAK-ı parçalayır" ittihamına cavab verdi

## "Tahir Kərimli söyməyə adam axtarırsa, Sərkisyana söysün"

**Tahir Kərimlinin Dünya Azərbaycanlıları Konqresinin həmsədri, şair-oftalmoloq Paşa Qəlbinurla bağlı söylədiyi fikirlər mətbuatda müzakirə obyektinə çevrilib. Belə ki, Milli Məclisin deputatı Tahir Kərimli modern.az-da dərc olunan "Paşa Qəlbinur DAK-ı "kor qoydu"" adlı yazıda bildirib ki, DAK-a rəhbərlik məsələsində problem olduğundan bu gün konqres normal fəaliyyət göstərə bilmir. Səbəb isə Paşa Qəlbinurun DAK həmsədrliyinə iddia etməsidir: "Uzun zamandır Paşa Qəlbinur DAK rəhbəri kimi özünü təqdim edir. Ancaq o, Sabir Rüstəmxanlının təşkilatında birləşsə, daha yaxşı olar. Rəhbərlikdə birgə təmsil olunsunlar. Parçalanmasınlar. Rəhbəri tanısınlar. Bilmirəm mənsəb məsələsi nə məsələdir ki, hamı ona can atır. Hesab edirəm ki, Sabir Rüstəmxanlı əvvəldən bu təşkilatın yaradıcılarından biri olub. Bu sahədə çox böyük əməyi və zəhməti var. Təkcə indi deyil, müstəqillikdən öncə də bu məsələlərə toxunub. Ona görə də Sabir Rüstəmxanlının yaratdığı təşkilatda hamı birləşməlidir".**

**T.Kərimli bildirib ki, Dünya Azərbaycanlıları Konqresində Sabir Rüstəmxanlının haqqı daha çoxdur:** "Tez-tez xarici ölkələrdə oluram. Dəfələrlə xarici ölkələrdə şahidi olmuşam ki, dünya ölkələrində yaşayan azərbaycanlılar çox çaşırlar. Bilmirlər kimin arxasınca getsinlər. Bəzən isə heç birinin arxasınca getmirlər. Çox passiv olurlar. Bütövlükdə bütün diaspor təşkilatlarına, dünya azərbaycanlılarının birliyinə zərbə dəyir. Mənə elə gəlir ki, Sabir bəyin rəhbərliyini qəbul etmək daha doğru addım olardı. Paşa Qəlbinur öz istəklərinə görə yox, dünya azərbaycanlıları naminə Sabir Rüstəmxanlı ilə birləşməli, dil tapmalıdır. Axı dünya bizi izləyir!"

**"Yeni Müsavat"a açıqlamasında haqqında söylənənlərə münasibət bildirən şair-oftalmoloq Paşa Qəlbinur bildirdi ki, iki ziyalının eyni sahədə fəaliyyət göstərməsi heç də ümumi işin ziyanına deyil. Bu baxımdan, Tahir Kərimlinin fikirləri yanlışdır:** "Mənim Tahir Kərimliyə hörmətim var, lakin o, yanlış fikir söyləyir. Birincisi, mənim Sabir Rüstəmxanlı ilə heç bir düşmənçiliyim yoxdur. İkimiz də ziyalı insanlarıq və çox gözəl münasibətlərimiz var. Bizim təşkilatlarımız da bir-birinin ziddinə fəaliyyət göstərmir.



Məsələn, bir düşmənə qarşı əgər 1000 nəfər mübarizə aparırsa, onların hərəsi ayrı-ayrı ölkələrdə fəaliyyət göstərirsə, axı onlar bir-birini "kor qoymağa" yönəlməyib, əksinə, bir-birinə dəstək olur. Bir döyüşdə 20 batalyon ola bilər. Bu o demək deyil ki, onlar bir-birinin əleyhinədir və cəmi bir batalyon olmalıdır. Sizin təşkilatınız olmasa da, müstəqil adamsınız, gedib Amerikada Azərbaycanı təbliğ edirsiniz, bunun DAK-a hansı ziyanı ola bilər? Mən əksər xarici ölkələrdə olmuşam, elmi fəaliyyətimlə bərabər, o ölkələrin yüksək dairələrində Azərbaycanı da təmsil etmişəm. İsveçrədə, Fransada parlamentarilərlə görüşlərim olub. Bunları şişirtməyə, hay-haray salmağa ehtiyac yoxdur ki, Paşa Qəlbinur təşkilatı bölür və sair". Əksinə, o qədər adamlar var ki, nüfuzları da var, maddi imkanları da var, nə DAK-a qatılırlar, nə ölkə üçün bir addım atırlar. Həmin insanları qınamaq lazımdır. Onlar heç düşünmür ki, neçə milyon azərbaycanlının İranda bir məktəbi yoxdur".

**P.Qəlbinurun sözlərinə görə, DAK və bu tipli təşkilatdan 50 dənə də olsa, bu, ümumi işin xeyrinədir:** "Çünki hamısı ümumi düşmənə qarşı mübarizə aparır. Pis odur ki, xaricdə çox tanınmış, nüfuzlu, imkanlı insanlarımız var, lakin ümumiyyətlə Azərbaycanın dərdləri ilə maraqlanmaqdan uzaqdırlar. Ancaq deyirlər ki, az aşım, ağrımaz başım. Nə siyasətə, nə vətənlə bağlı məsələlərə qarışmırlar. Bu pisdir. Tahir Kərimli kimisə söymək istəyirsə, dalaşmaq istəyirsə, gəlsin mən ona siyahı verim ki, çoxları dünyanın müxtəlif ölkələrində yeyib-içib kef edirlər, heç bir iş görmürlər. Biz axı özümüz özümüzlə mübarizə aparmırıq, ümumi düşmənlərimizlə mübarizə aparırıq".

**Birləşmə məsələsinə gəlincə, Paşa Qəlbinur da DAK-la birləşməyə hazır olduğunu diqqətə çatdırdı:** "Mən birləşmə fikri ilə tamamilə razıyam. Hətta özüm bu barədə dəfələrlə təklif vermişəm. Ancaq hansısa təşkilat birləşmirsə, ayrı-ayrı fəaliyyət göstərirsə, onun ümumi işə heç bir ziyanı yoxdur. Kaş hamı elə mənim kimi, Sabir bəy kimi Azərbaycan üçün can yandırsa, xalqın problemlərindən narahat olsa. Eyni sahədə iki təşkilatın fəaliyyət göstərməsinin heç bir narahatçılığı ola bilməz. Mən birləşməyin tərəfdarıyam. DAK-ın tədbirlərinə gedirəm, iştirak edirəm, sözümü də deyirəm. Çünki söhbət dövlətimizin, millətimizin, dövlətimizin taleyindən gedir. Əgər Tahir bəy, kimisə söymək istəyirsə, getsin Sərkisyanı söysün, Azərbaycan ziyalısını söyməyin ona heç bir xeyri olmayacaq".

❑ **Nərgiz LİFTİYEVA**

# Tale Bağırzadənin statusu nə?

## QHT-lər ilahiyyatçını vicdan məhbusu elan edən Norveç təşkilatına müraciət etdilər; **Mirvari Qəhrəmanlı:** "Onların adlarının qapalı saxlanılması şübhə doğurur"



**Norveçin dini azadlıqlara dəstək təşkilatı olan "Forum 18"in həbsdə olan "Müsəlman Birliyi" Hərəkatının rəhbəri Hacı Tale Bağırzadəni vicdan məhbusu kimi tanıması Azərbaycanda birmənalı qarşılanmayıb. Adları açıqlanmayan bir qrup QHT Norveç təşkilatına müraciət edib.**

Müraciətdə beynəlxalq təşkilatların son zamanlarda Azərbaycan əleyhinə hesabatlar hazırladıqları, qərəzli münasibətlər sərgilədiyi bildirilir. Buna nümunə olaraq da "Forum 18" təşkilatının qərəzli şəkildə ilahiyyatçini vicdan məhbusu elan etdiyi vurğulanıb. QHT-lər T.Bağırzadənin həbs edildiyinin səbəblərini açıqlayaraq, onun 6 nəfərin ölümünə səbəbkar olduğunu, ölkə əhalisini hakimiyyət əleyhinə səfərbər etmək üçün yığıncaqlar keçirdiyini, bunun üçün odlu silahlar əldə etdiyini bildiriblər. Bu amillərə görə "Müsəlman Birliyi" Hərəkatının rəhbərinin vicdan məhbusu elan olunmasının qəbuledilməz hal olduğu qeyd olunur. Müraciətdə Norveç təşkilatının qərarının hiddət doğurduğu bildirilir



və beynəlxalq institutları ölkəmizə qarşı qərəzli münasibətdən geri çəkilməyə çağırış var.

T.Bağırzadənin "Forum 18" tərəfindən vicdan məhbusu elan olunmasının ardından onun statusunun nədən ibarət olması ətrafında müxtəlif fikirlər səslənməyə başladı. Bir qisim onun bu adı almasını düzgün hesab etmir, bunun əksini düşünənlər də var.

**Hüquq müdafiəçisi Mirvari Qəhrəmanlı bildirdi ki, belə müraciətlər əvvəlcədən əsaslandırılır, bu barədə ictimaiyyətə məlumat verilir və sonra beynəlxalq təşkilatlara göndərilir:** "Müraciət edən QHT-lərin adlarının qapalı saxlanılması şübhə doğurur. Baxışlar müxtəlif olur. Beynəlxalq təşkilatlar bu tipli qərarlarda yerli QHT-lərin, məhbusların vəkillərinin rəylərinə əsaslanmalıdır. Bundan sonra siyasi və ya vicdan məhbusu adını verə bilər. Norveç təşkilatının araşdırmasının necə aparıldığı da məlum deyil. Həm bu tərəfdən, həm də müraciət edən QHT-lərin fikirlərində tamamlanmamış hissələr var. QHT-lərin müraciəti qeyri-şəffaf olduğu üçün buna şübhə ilə yanaşıram. Bir hüquq müdafiəçisi kimi, bu müraciət tərəfimdən müsbət qarşılanmır. Çünki müraciət şəffaf görünmür, vətəndaş cəmiyyətinin fəaliyyətini şübhə altına alır. Əgər adlar açıqlanmırsa, belə bir adlar və müraciət olmaya da bilər. Bu dini qrupla bağlı ölkədaxilində ciddi müzakirələr gedir. Buna görə də beynəlxalq təşkilat vəkillərin və hüquq müdafiəçilərinin fikirlərinə əsaslanmalıdır".

**Hüquq müdafiəçisi məhkəmə prosesləri bitəndən sonra siyasi və vicdan məhbusu adlarının verilməsinin doğru olduğunu da qeyd etdi:** "Nəzərə alaq ki, Tale Bağırzadə və tərəfdarlarının məhkəmələri hələ yekunlaşmayıb. Bu proses başa çatandan sonra təqsirləndirilən şəxsin cinayətkar, yaxud qeyri-cinayətkar olduğu aydınlaşır. Tale Bağırzadənin bütün məhkəmə prosesləri izlənilməlidir. İllər öncə Azərbaycanda Nardaran hadisələri olmuşdu. Bizim hüquq müdafiə federasiyamız var idi. O zaman böyük bir araşdırma aparmışdıq. Nardaranda yerli əhali, icma ilə görüşmüşdük. Bütün prosesləri izləyib, sonradan açıqlama yaymışdıq. Bu gün Tale Bağırzadə ilə bağlı nə mətbuat konfransları getmir, nə də onun barəsində geniş informasiyalar verilir. Hökumətin dediyi bir cür, Nardaran əhalisinin dediyi başqa cürdür. Bütün bunlar belə davam edərsə, məhkəmələr izlənilməsə, kimsə deyə bilməz ki, Tale Bağırzadə günahkardır, yaxud günahsızdır, siyasi məhbus, yoxsa vicdan məhbusudur. Məhkəmənin verdiyi qərardan asılı olmadan proses izlənilməlidir. Əgər ortaya çıxsa ki, onun əməlində cinayət tərkibi yoxdur, yazılarına, çıxışlarına, hakimiyyət əleyhinə fikirlərinə görə cinayətkar adlandırılıb, bax o zaman onu vicdan məhbusu adlandırmaq olar. Amma o vaxta qədər nəsə demək çətindir. Çünki baxış birtərəfli olmamalıdır".

Xatırladaq ki, Tale Bağırzadə son 5 ildə üçüncü dəfə həbs edilib. İlk olaraq, o, Təhsil Nazirliyinin qarşısında keçirilən "Hicab qadağasına yox!" aksiyasına görə həbs edilib və il yarım azadlıqdan məhrum edilib. 2012-ci ilin noyabrında azad edilən ilahiyyatçı 4 aydan sonra yenidən həbs edilir və 2 il müddətinə cəza alır. Cəzasının bitməsində az müddət qalmış həbs müddəti daha 4 ay uzadılır. 2015-ci ilin iyul ayının sonlarında azad edilən Bağırzadə bundan 4 ay sonra, yeni noyabrın 26-da Nardaran hadisələrinə görə ağır ittihamlarla həbs edilir. Onun vəkilləri işlə artıq tanış olublar. Yaxın vaxtlarda cinayət işi məhkəməyə göndəriləcək.

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 143 (6464) 1 iyul 2016

**ATV-nin gənc əməkdaşlarının təsadüfən sabiq müdafiə naziri Rəhim Qazıyevi efirə çıxartması qalmaqala səbəb olub. Belə ki, televiziya əməkdaşları türkəçarənin faydalı olub-olmaması ilə bağlı Milli Parkda sorğu keçirərkən təsadüfən sabiq nazirin də fikrini soruşublar. Süjetdə sabiq nazir kürəyə banka qoyulmasının faydalarından danışıb.**

# ATV-nin "banka"sı aranı qatıb

## Rəhim Qazıyevin efirdə görünməsi qalmaqala səbəb olub; Qulu Məhərrəmli: "Biz deyəndə ki, televiziyada işləyən adamlar..."

Gününsesi.info saytının yaydığı məlumata görə, kanal rəhbərliyi "Ana xəbər" buraxılışını izləyərkən efirdə keçmiş müdafiə naziri Rəhim Qazıyevin danışdığını görüb şok keçirib. Məlum olub ki, ATV-nin gənc əməkdaşları bulvarda sorğu keçirərkən tanımadıqları Rəhim Qazıyevdən də müsahibə alıblar. Və bu da efirə verilib. Qazıyevin ATV kanalında görünməsi isə böyük səs-küyə səbəb olub. Dərhal "yuxarıdan" gələn zənglə möhkəm danlanan kanalın rəhbəri Vüqar Qaradağlı gecəykən teleşirkətə gəlməli olub. Redaktor heyətini toplayan Qaradağlı onları danlayıb. O, baş verənləri özünə qarşı qəsdən hazırlanmış təxribat adlandırıb. Bundan sonra gərginlik daha da artıb. Qəfil səhhəti pisləşən Vüqar Qaradağlı üçün axşam saat 12 radələrində təcili tibbi yardım da çağırılıb.

Bu gün isə ATV-də geniş tərkibdə iclas keçiriləcəyi və dünənki qalmaqalla bağlı bir sıra əməkdaşların işdən çıxarılacağı gözlənilir.

Bu olay bir çox sualları ortaya qoyur. Məlumdur ki, artıq uzun müddətdir ki, efirlər müxalifyönlü siyasətçi və ya şəxslərin üzünə bağlı qalıb. Niyə müxalifyönlü şəxslərin adi bir məişət sorğusu ilə efirdə görünməsini televiziya rəhbərləri özlərinə təhlükə, başağrısı hesab edir? Nüfuzlu televiziya kanalının gənc əməkdaşlarının sabiq naziri tanımaması nədən xəbər verir?

**ATV-nin xəbərlər xidmətinin baş redaktoru və telekanalın mətbuat xidmətinin rəhbəri Vaqif Aydınoğlu yaranmış qalmaqalla əlaqədar "Yeni Müsavat"a açıqlama verib. O, yayılan xəbərlərin əsassız olduğunu bildirdi:** "Yayılan məlumatların hamısı tam əsası olmayan informasiyadır, yazan ilk mənbənin fantaziyasıdır. Belə bir şey olmayıb. Adam *(sabiq müdafiə naziri Rəhim Qazıyevi nəzərdə tutur X.G.)* siyasi bəyanat səsləndirməyib, hansısa bir ciddi məsələyə münasibət bildirməyib. Məsələnin məğzi qalıb bir kənarda, kimlərsə hansısa məsələ ətrafında şou yaratmaq, özlərinə reytinq yaratmağa çalışırlar. Boş-boş şeylərdir".

Vaqif Aydınoğlu qalmaqalla bağlı bir sıra əməkdaşların işdən çıxarılacağı xəbərinin də yalan olduğunu desə də, "əməkdaşlarınız Rəhim Qazıyevin kimliyindən niyə xəbərsiz olub" sualımıza cavab vermək istəmədi.




**Tanınmış teletənqidçi Qulu Məhərrəmli məsələ ilə bağlı bu cür şərh verdi:** "Televiziyalarda belə hadisələr olur. Azərbaycan vətəndaşının hər hansı bir televiziya süjetində göstərilməsi, onun siyasi keçmişinə baxmayaraq, orda siyasətdən deyil, tamam başqa bir mövzudan danışmasını böyük qalmaqala çevirməyin özünün ciddi bir mənası yoxdur. Mən buna qeyri-normal baxıram. İkincisi də hər şeyi televiziya rəhbərlərinin üzərinə qoymaq da düzgün deyil, yəni demək ki, bu, televiziya rəhbərlərindən gəlir. Ümumi bir hava var ki, bu cür davranışlar sanki cinayət hesab olunur. Ümumiyyətlə, mən hesab edirəm ki, Rəhim Qazıyev və ya digəri olsun, onun ATV-də görünməsi ilə hansısa internet televiziyasında görünməsi arasında ciddi bir fərq yoxdur. Onsuz da Rəhim Qazıyev yazır, bəyanatlar verir, çıxışlar edir, fikirlərini ifadə edir və sairə.

Gənc reportyor onu tanımaya bilər, amma heç kim onun efirdən görünməsini rəsmi şəkildə qadağan etmir. Yəni bunların hamısı həmin televiziyada, cəmiyyətdə münasibətlərin olmamasından irəli gəlir. Sanki bu adamlar tarixdən silinmiş kimi göstərilməyə çalışılır. Mən bunu cəmiyyətin ümumi havasının məhsulu hesab edirəm. Burda nə televiziyanı xüsusi günahlandırıram, nə də reportyoru. O, cani deyil, vətən xaini deyil. Rəhim Qazıyevə kimsə yaxşı, kimsə də fərqli baxa bilər. Mənə elə gəlir ki, bu cür lazım olmayan olaylardan şouların düzəldilməsi cəmiyyətdə ümumi ab-havanı pozur".

**Qulu Məhərrəmli bir sıra gənc televiziya müxbirlərinin ümumi dünyagörüşlərinin olmamasından şikayətləndi:** "Özüm də rast gəlirəm, məsələn olur ki, jurnalist məni tanıyır, amma mənimlə olan Xəyyam Mirzəzadəni tanımır. Jurnalist Xəyyam Mirzəzadəyə deyir, "özünüzü təqdim edin". Bu, biabırçılıq, fəlakətdir! İstər dövlət, istərsə də özəl televiziya olsun, bura gələn insanların dünyagörüşü, Azərbaycanın tarixi, mədəniyyəti haqda xəbərdar olmalı, xüsusən yaşadığımız dövrün problemlərini ümumi şəkildə bilməlidir. Bizdə çox ciddi böhran gedir. Bəzən televiziya adamlarını tənqid edəndə inciyirlər. Bu bir prosesdir ki, gedir. Bu cür adamların içərisində təəssüf ki, televiziya sədri, müavin, baş redaktor, adi işçi də var. Və təəssüf ki, bu, bizim reallığımızdır. Biz deyəndə ki, televiziyada işləyən adamlar müəyyən laboratoriyadan keçməli, hazırlaşmalı, xüsusi təhsil, təlim gördükdən sonra efirə gəlib işləməlidir, dediklərimizi yanlış anlayırlar".

❑ **Xalidə GƏRAY**

# Dolların qalxması enerjidaşıyıcılarını tətikləyə bilərmi?

## Ekspertlər bildirirlər ki, qiymətlərin artırılması üçün iqtisadi əsas yoxdur, amma...

**Milli valyuta olan manat yenidən dəyər itirməkdədir. Dollar gündəlik olaraq cüzi şəkildə, qəpik-qəpik bahalaşır. Ekspertlər bildirirlər ki, dolların qalxması enerjidaşıyıcılarının qiymətini tətikləyə bilər. Bunun üçün iqtisadi əsas yoxdur, ancaq hökumət bəhanə gətirərək qiymətlərə "göz gəzdirə" bilər. Bir müddət əvvəl benzinin qiymətinin bahalaşacağı barədə fikirlər səslənsə də, Tarif Şurası bunu təkzib etmişdi. Ekspertlər xəbərdarlıq da edirlər, əgər enerjidaşıyıcılarının qiyməti artırılarsa, biznesə mənfi təsir göstərəcək.**

**Ekspert Natiq Cəfərli** məsələ ilə bağlı musavat.com-a açıqlamasında bildirib ki, dolların bahalaşması ilə enerjidaşıyıcılarının qiyməti arasında əlaqə yoxdur: "Burada birbaşa əlaqə olmayacaq. Yəni Azərbaycanda büdcənin doldurulması ilə bağlı əlavə mənbələr axtarıla bilər. Əlavə mənbələr hesabına büdcə doldurularkən, belə bir qərar verəcəklərsə, o zaman müəyyən addımların olması ehtimalı var. Məsələn, suyun qiymətinin qaldırarkən iqtisadi səbəb yox idi. Amma bir gecədə Tarif Şurası suyun qiymətini qaldırdı. Heç bir iqtisadi əsaslandırması olmadan bahalaşma baş verdi. İndi də enerjidaşıyıcılarının bahalaşdırılmasının ciddi iqtisadi əsası yoxdur. Amma büdcədə yaranacaq problemlərin zəifləməsi, büdcəyə daha artıq vəsaitin daxil olması üçün hökumət belə bir addım ata bilər, bu, istisna edilmir. Amma bunun nə dünyada gedən proseslərlə, nə dolların bahalaşması ilə heç bir əlaqəsi olmayacaq. Belə bir addım atılsa, səbəbi yoxdur. Çünki Azərbaycanda hələ də enerjidaşıyıcılarının qiyməti kifayət qədər yüksək səviyyədədir. Hətta dünyada ciddi dəyişikliklər baş verərsə, Azərbaycanda neftin qiymətinin 120 dollar olan vaxtı qaldırılan qiymətlər bu gün endirilmədi. Ona görə belə bir addımın atılması ehtimalı var. Amma birbaşa dolların bahalaşması və yaxud dünyada gedən hər hansı proseslərlə əlaqədar deyil".

**Ekspert Azər Mehtiyev isə musavat.com-a açıqlamasında qeyd edib ki, qiymətlər artırıla bilər:** "Azərbaycanda enerjidaşıyıcılarının qiyməti hökumət tərəfindən tənzimlənir. İndiyəcən bu qaydaların qiymətlərin tənzimlənməsində hansı prinsiplər gözlənilir, nə vaxt qiymətlər artırılır, bununla bağlı heç bir sənəd yoxdur. Konsepsiya yoxdur ki, bunu bilək. Məsələn, hansı hallarda qiymətlərə yenidən baxıla bilər. Ancaq bir şey var ki, büdcənin gəlirlərinin toplanmasında problemlər var. Büdcənin doldurulması baxımından enerjidaşıyıcılarının qiymətinin artırılmasına ehtiyac yarana bilər. Bu, hökumətin ümid bəslədiyi məsələlərdən biridir. Ancaq indiki halda enerjidaşıyıcılarının qiymətlərinin qaldırılması eyni zamanda çox ciddi şəkildə biznesə və iqtisadi fəallığa təsir göstərən bir amildir. Dünya bazarındakı neftin qiyməti enerjidaşıyıcılarının qiymətlərinin artırılmasına əsas vermir. Eyni zamanda ölkədəki mövcud iqtisadi vəziyyət, xüsusilə biznesin vəziyyətinin ağır olması enerjidaşıyıcılarının qiymətlərinin qaldırılmasına əsas vermir. Hökumət belə bir şəraitdə qiyməti qaldırarsa, bu, heç də büdcənin gəlirlərinin artmasına deyil, əksinə, iqtisadi fəallığa zərbə vurmaqla bu gəlirlərin daha da azalmasına aparıb çıxara bilər. Ən azı, iqtisadi məntiqlə desək, bu, qaldırılmamalıdır".

❑ **Röya RƏFİYEVA**



## Dollar bahalaşmaqda davam edir

**Azərbaycan Mərkəzi Bankı (AMB) ABŞ dollarının iyulun 1-nə rəsmi məzənnəsini 1,5425 AZN/USD səviyyəsində müəyyən edib. AMB-dən verilən məlumata görə, bu, gündəlik 0,20% artım deməkdir.**

Qeyd edək ki, iyunun 30-na rəsmi məzənnə 1,5394 AZN/USD olub.

YENİ MÜSAVAT
N 143 (6464) 1 iyul 2016

**İyunun 24-də Londonda "Açıq Rusiya" klubunda növbəti müzakirələr olub. Tədbirdə postsovet ölkələrində gedən siyasi və iqtisadi proseslər müzakirə olunub. Məşhur amerikalı maliyyəçi, daha çox inqilabların həyata keçirilməsində rol oynayan şəxs kimi tanınan Corc Soros da keçmiş sovet ölkələrindəki vəziyyətlə bağlı fikirlərini bölüşüb.**



# "Rəngli inqilablar" maliyyəçisi Sorosun Azərbaycana hücuma keçməsinin sirri

C.Sorosun sözlərinə görə, Qırğızıstanın bəxti gətirib ki, korrupsiyaya qurşanmayan prezidenti var. Bu ölkədə demokratik inkişaf səviyyəsi çox yüksəkdir, çünki ən kasıb dövlətlərdən biri olub. Qazaxıstanın durumuna toxunan Soros bu ölkənin Rusiyadan daha çox uzaqlaşdığını qeyd edib. "Başqa sözlə, bunlar adi postsovet ölkələri deyil: onlar başqadır. Nazarbayev əvvəlki vaxtlarda da başqalarından bir qədər daha maarifçi olub. Baxmayaraq ki, o uzun müddət hakimiyyətdədir və xeyli səhvlər edib, ölkədə xaricdə təhsil almış savadlı orta sinif yaranıb. Dövlət universitetində regionun digər universitetlərindən daha yüksək standartlar var. Xaricdən çoxlu sayda müəllim gəlib. Hakimiyyət Rusiya bazarına çıxmaq üçün xarici kapital cəlb etməyə çalışır".

Sorosun fikrincə, digər ölkələr Rusiyadan daha çox asılıdır. O, nümunə kimi Tacikistanı göstərib.

Daha sonra C.Soros Azərbaycandan bəhs edib və kəskin ifadələr işlədib, ölkədə repressiyalar həyata keçirildiyini bildirib. O, "Qərbin təəssüf ki, çox yumşaq yanaşdığı ölkələrdən biri Azərbaycandır" deyib. Azərbaycanı diktatura ölkəsi hesab edən C.Soros vaxtilə prezident İlham Əliyevlə görüşdüyünü də xatırladıb, həmçinin ölkə rəhbərliyi haqqında sərt ifadələr səsləndirib, Qərbi isə hakimiyyətə dəstək verdiyinə görə tənqid edib.

Xatırladaq ki, C.Soros 2007-ci ilin yanvarında Bakıda olarkən prezident İ.Əliyevlə görüşmüşdü. O zaman bildirilirdi ki, Soros son illər Azərbaycanda gedən proseslər, ölkəmizin gələcək inkişaf perspektivləri haqqında fikirlərini söyləyib və bu proseslərdən razı qaldığını bildirib. Həmçinin Soros Azərbaycanda həyata keçirilən bir sıra təşəbbüslərin razılıqla qarşılandığını bildirərək, Neft Fondu ilə bağlı şəffaflığın təmin olunması təşəbbüsünü xüsusi vurğulayıb və deyib ki, bu, dünyanın bir çox dövlətləri üçün bir nümunədir. Həmin dövrün rəsmi xəbərində deyilirdi: "Bu istiqamətdə işlərin davam etdirilməsini yüksək qiymətləndirən C.Soros Azərbaycan hökuməti ilə əməkdaşlıq etmək arzusunda olduğunu bildirdi".

Lakin sonrakı dönəmlərdə C.Sorosun Azərbaycan rəhbərinə münasibəti dəyişdi. Nəticədə Soros Fondunun Azərbaycan nümayəndəliyi - Açıq Cəmiyyət (Soros) Fondu 2011-ci ildə Azərbaycanı tərk etdi. Sonrakı dönəmlərdə Soros Fondu Azərbaycanda insan haqlarına təzyiqlərlə bağlı bəyanat da yaymışdı. ttp://www.opensocietyfoundations.org/press-releases/statement-open-society-crackdown-rights-azerbaijan Bəyanatda bir sıra siyasi məhbuslardan bəhs olunurdu. Lakin artıq adları çəkilən şəxslər azadlıqdadır. Belə olan təqdirdə Sorosun indiki sərt tənqidi suallar doğurur.



**Mehman Əliyev:** "Onların yenidən Bakıya qayıtması, işləməsi barədə müzakirələr aparılıb, ancaq görünür, razılığa gəlməyiblər"



**Fəzail Ağamalı:** "Soros Azərbaycandan qovulduğu üçün ölkəmizə qarşıdır, O, lənətlənmiş bir insandır, onun əli ilə minlərlə insanın qanı tökülüb"

Yeri gəlmişkən, 1999-cu ildən Açıq Cəmiyyət Fondu Bakıda yerli tərəfdaşları ilə birlikdə neft və qaz gəlirlərinin şəffaflığı naminə çalışdığını bəyan edib. Soros həmçinin Azərbaycanı Mədən Sənayesində Şəffaflıq Təşəbbüsündə öncül yerini qaytarmaq üçün qətiyyətlə hərəkətə keçməyə çağırıb.

İndiki situasiyada Sorosun Azərbaycan hakimiyyətinə qarşı bu dərəcədə qəzəbli olmasının səbəbi maraq doğurur.

**Açıq Cəmiyyət İnstitutu Azərbaycan şəbəkəsinin İdarə Heyətinin sonuncu sədri olmuş Mehman Əliyev "Yeni Müsavat"a dedi ki, baş verənlər yaxşı əlamət deyil:** "Bu, o deməkdir ki, hakimiyyətə qarşı ciddi münasibət var. Məndə olan məlumata görə, Soros Fondu son aylarda Azərbaycan hakimiyyəti ilə danışıqlara gedib. Onların yenidən Bakıya qayıtması, işləməsi barədə müzakirələr aparılıb, ancaq görünür, razılığa gəlməyiblər. Nəinki onların, həmçinin digərlərinin qayıtmasını istəmirlər. Çünki hökumət istəyir ki, beynəlxalq təşkilatlar burda onun ciddi nəzarəti altında işləsin. Lakin onlar da buna getmək istəmirlər, prinsipial mövqeləri belədir. Sorosun da Azərbaycandakı hakimiyyəti və onun başçısını bu formada qiymətləndirməsi artıq onu göstərir ki, yaxınlaşmaq, yaxud əməkdaşlıq üçün bir platforma qalmır. Deməli, Qərb tərəf və Soros hökumətlə bağlı sərt mövqeyin tərəfdarıdırlar. Özü də Soros Demokratlar Partiyasına kifayət qədər yaxındır, vaxtilə onu "Obamanın xaç atası" elan etmişdilər. Hətta 2009-cu ildə o, böyük bir məqalə yazıb Obamanı maliyyələşdirməsini və s. təkzib etdi. Bu, çoxlarını qəzəbləndirmişdi. Amma faktiki o, Demokratlara, Klintona, Obamaya və digərlərinə çox yaxındır. Üstəlik, maliyyə lobbisinin çox görkəmli nümayəndəsidir, çox güclü təsirlərə malik olan şəxsdir. O mənada onun dedikləri Azərbaycan hökuməti üçün yaxşı bir şey deyil".

**M.Əliyev Azərbaycanda inqilab hazırlıqları ilə bağlı vaxtaşırı xəbərlərin yayıldığını, ancaq son iki il ərzində Sorosun adının çəkilmədiyini xatırlatdı:** "Amma bir şeyi nəzərə almaq lazımdır ki, Sorosun ölkədən getməsi çox maraqlı hadisəydi. O, Azərbaycan hakimiyyətinin ölkədə nələr hazırladığını bilirdi, bu proseslərin hara apardığını gördüyü üçün prosesləri qabaqlayıb özü çıxıb getdi. O zaman qalmaq, yaxud getməklə bağlı müzakirələr gedirdi, gah "qalırıq", gah da "gedirik" deyirdilər. Amma 2011-ci ildə getməyə qərar verdilər. Son açıqlama da onu göstərir ki, Qərbdə Azərbaycan hakimiyyətinə münasibət yaxşı deyil. Daha sərt addım atıla bilər".

**M.Əliyev bir məqama da diqqət çəkdi:** "Mədən Sənayesində Şəffaflıq Koalisiyası çərçivəsində Azərbaycanın namizədliyinin saxlanması ilə bağlı sentyabra qədər vaxt veriblər ki, mövqeyinizi dəyişin, ya da daha sərt addım atıla bilər. Azərbaycan isə çox maraqlıdır ki, koalisiyaya üzvlüyünü təzədən bərpa etsin. Çünki Dünya Bankı, Beynəlxalq Valyuta Fondu ilə bağlı kreditlər, investorların gəlməsi məsələsi buna çox bağlıdır. İkincisi, açıq hökumət təşəbbüsü var, orada da Azərbaycanın üzvlüyünü aşağı salıblar. Bu tendensiyalar onu göstərir ki, Azərbaycana qarşı sərt mövqe davam edir. Sorosun açıqlaması da bunu göstərir". **Ekspert bundan sonrakı gedişatla bağlı da fikirlərini bölüşdü:** "Azərbaycan hakimiyyətindən islahatların aparılmasını gözləyirlər. İndi gözlənilir ki, yaxın aylarda hansısa proqram ortalığa qoyulduğu elan olunacaq. Hər şey buna bağlıdır, islahatlar başlasa, münasibət dəyişəcək. Olmasa, deməli, münasibət sərt olaraq qalacaq və daha da sərtləşəcək".

**İqtidarın kursunun müdafiəçisi, deputat Fəzail Ağamalı isə Sorosun Azərbaycana qarşı qərəzli olduğu qənaətindədir:** "Soros bir çox ölkələrdə "rəngli inqilabları", hakimiyyət dəyişikliyinin hətta zoraki üsullarla həyata keçirilməsini maliyyələşdirən şəxsdir. Soros və onun fondu minlərlə insanın qanı üzərinə hansısa beynəlxalq gücün məqsədlərini həyata keçirmək üçün əlindən gələni əsirgəməyib. Bir çox ölkələrdə onun əməlləri bu gün də olduqca pis hadisələrlə xatırlanır. Soros Azərbaycanda "demokratiya və insan haqları" adı altında hakimiyyətin seçkilər yolu ilə deyil, zorakılıq əməllərinə söykənən prinsiplərlə ələ keçirilməsini maliyyələşdirən və onun təşkilatçılarından biri olan şəxsdir. Ancaq bunu reallaşdıra bilməyib. Çünki Azərbaycan xalqı ölkə prezidenti İlham Əliyevi dəstəklədiyinə görə o, bu ideyaları gerçəkləşdirə bilməyib".

**F.Ağamalı Soros Fondunun yanında kimlərin fəaliyyət göstərdiyini, onların təsnifatını aparmağı da tövsiyə etdi:** "Bunlar əslində Azərbaycan hakimiyyətini ən müxtəlif zoraki üsullarla ələ almağa hazır olan insanlardan ibarət idi. Soros Azərbaycandan qovulduğu üçün təbii ki, o, ölkəmizə qarşıdır, narazıdır. Beləliklə, digər anti-Azərbaycan qüvvələri kimi, Azərbaycana qarşı iftira atır, böhtan yağdırır. Soros, sadəcə olaraq, lənətlənmiş bir insandır. Onun əli ilə yüzlərlə, minlərlə insanın qanı tökülüb".

❑ **Cavid TURAN**



# Türkiyəni ürəyindən İsrailə görəmi vurdular?

## Terrorçulardan birinin Rusiya, Qırğızıstan və Özbəkistan vətəndaşı olduğu məlum olub

**İyunun 28-də İstanbulun Atatürk Hava Limanında partlayış törədən terrorçuların hansı ölkə vətəndaşları olduğu müəyyənləşib. "Milliyet"in verdiyi xəbərə görə, terrorçulardan birinin Dağıstan sakini olan Rusiya vətəndaşı, digərinin Qırğızıstan, üçüncüsünün isə Özbəkistan vətəndaşı olduğu məlum olub.**

Almaniyanın "Bild" qəzetinin məlumatına görə, hava limanının partladılması əmrini İŞİD-in Türkiyə nümayəndəliyinin rəhbəri İlhami Balı verib.(axar.az)

"Bild" qəzeti məlumatı Türkiyənin təhlükəsizlik qüvvələrindən aldığını qeyd edib. Xəbərdə İlhami Balının Türkiyədəki adamlarına 2 min 500 dollar maaş verdiyi də bildirilir.

Qeyd edək ki, iyunun 28-də aeroportda törədilən partlayış nəticəsində 42 nəfər ölüb, 239 nəfər yaralanıb. İstanbulda iyunun 30-da keçirilən əməliyyat zamanı terror hadisəsi ilə əlaqəsi olan 13 nəfər saxlanılıb. Onlardan 3-ü əcnəbidir. İlkin ehtimala görə, terror aktının arxasında İŞİD dayanır.

Bundan əvvəl isə Türkiyə mətbuatı terror aktını Tacikistan əsilli terrorçuların törətdiyini yazmışdı və üç terrorçu-kamikadzenin fotoşəklini də dərc etmişdi. Yalnız bu xəbərdən sonra Tacikistan prezidenti Emoməli Rəhmonun qanlı terror aktı ilə əlaqədar Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğana başsağlığı verdiyi və terror aktını qınadığı barədə xəbər yayıldı. Hətta Ermənistan prezidenti Serj Sərkisyan da İstanbulda törədilən terror aktına görə Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğana başsağlığı verib.

Türkiyə ilə Suriyanın sərhəd ərazisində iki "canlı bomba" öldürülüb. 2 İŞİD terrorçusu sərhəddə xəbərdarlığa məhəl qoymayaraq qaçmağa çalışan zaman təhlükəsizlik qüvvələri tərəfindən öldürülüb. Terrorçulardan birinin kəşfiyyat hesabatlarında Ankara, yaxud Adanada özünü partlatmaq istəyən Məhəmməd Ərəb adlı şəxs olduğu ortaya çıxıb. Terrorçunun üzərindən 21 iyul tarixində Dəməşqdən Qamışlıya gəldiyini göstərən təyyarə bileti tapılıb. Digər terrorçuların də şəxsiyyəti aşkarlanıb. İki terrorçunun da suriyalı olduğu bildirilib.

Türkiyədə baş verən terrorun Ankara-Təl-Əviv və Ankara-Moskva münasibətlərinin normallaşdığı günlərə təsadüf etməsi daha çox müzakirə olunur.

**Politoloq Elxan Şahinoğlu "Yeni Müsavat"a bildirdi ki, İsrailin Türkiyə ilə barışması terrorçu İŞİD qruplaşmasına və onun arxasında dayanan mərkəzlərə sərf eləmir:** "Çünki Türkiyə-İsrail münasibətləri keçmiş illərdəki tərəfdaş səviyyəsinə qalxsa, o zaman bu iki dövlət yalnız iqtisadi və ticarət tərəfdaşı olmayacaqlar, həm də hərbi və təhlükəsizlik sahəsində ciddi əməkdaşlığa başlayacaqlar. Bu isə terrorçu təşkilatları vahiməyə salır. Ona görə də terrorla Türkiyəni cəzalandırmaq istəyirlər". **E.Şahinoğlu qeyd etdi ki, DAİŞ Türkiyənin Rusiya ilə barışmasından da qəzəblidir:** "Ona görə ki, Rusiya-Türkiyə əməkdaşlığı İsraillə olduğu kimi, təhlükəsizlik sahəsini də əhatə edəcək. Mən onu da ehtimal edirəm ki, Rusiya ilə Türkiyə Suriyada terrora qarşı mübarizədə əməkdaşlığa da başlaya bilərlər. Əməkdaşlığın əsas qayəsi isə DAİŞ-in neytrallaşdırılmasına yönələ bilər".

❑ **Cavid TURAN**

YENİ MÜSAVAT
N 143 (6464) 1 iyul 2016

**Xəbər verildiyi kimi, ötən həftə dünya masonları Bakıya toplaşıblar. Rusiya mason lojasının rəhbəri Andrey Boqdanov vesti.az-a açıqlamasında paytaxtımızda olduğunu təsdiqləyərək, burada bir sıra görüşlər keçirdiyini, danışıqlar apardığını bildirib.**

# Masonların Bakı toplantısı barədə yeni iddialar

## Toplantı üçün Azərbaycanın seçilməsi suallar yaradır; sabiq MTN-çilər müəmmalı məsələlərdən danışdılar



Rusiya mason lojasının rəhbəri bildirib ki, danışıqların mahiyyəti Azərbaycanla bağlı olmayıb. **"Çoxlu xarici qonaqlar oldu. Fürsətdən istifadə edərək Avropa və Amerika lojalarının nümayəndələri ilə danışıqlar apardım"** - deyə o bildirib.

Qeyd edək ki, Boqdanov ötən il Dağlıq Qarabağa səfər edib və bu üzdən Azərbaycan XİN-in qara siyahısına düşüb. Lakin Azərbaycandan üzr istədiyi üçün adı siyahıdan çıxarılıb. O, 2007-ci ildən Rusiya mason lojasının rəhbəridir, dünyanın bu mifik və gizli təşkilatına mənsubluğunu gizlətmir. Təşkilatın prinsiplərinin əksinə, tez-tez KİV-lərə müsahibələr verir.

Masonların Bakı toplantısı Azərbaycanda ciddi müzakirələrə səbəb olub. Toplantı üçün Bakının seçilməsi və nələrin müzakirə edildiyi suallar yaradır. Bundan əlavə, bu tipli toplantılarının təşkil olunduğu ölkələrin hüquq-mühafizə orqanlarının xəbərdar edilib-edilməməsi, eləcə də onların mühafizəsinin necə təşkil olunduğu suallar doğuran məsələlərdəndir.

**MTN-in (indiki DTX) sabiq birinci müavini, Azad Demokratlar Partiyasının sədri Sülhəddin Əkbər masonların Bakıya toplanmalarının səbəbsiz olmadığı qənaətindədir:** "Görünür, Bakıda onlara dəstək verənlər var, yaxud yeni üzvlər qəbul olunub. Bu təşkilatın toplantıları üçün yerlər təsadüfən seçilmir. Burada ən çox təhlükəsizlik məsələləri nəzərə alınır. Toplantı təşkil olunarkən iclasın təşkil olunduğu ölkə təhlükəsizlik baxımından təminat verməlidir. Bunu da ya o təşkilatın üzvləri, ya da dəstəkçiləri verə bilərlər. Görünür, Azərbaycanda da həmin mason lojasının strukturu var. Bu olmasa da, dəstəkçilər mümkündür. Bu cür toplantılar üçün elə yerlər seçilir ki, oranın təhlükəsizliyini təmin etmək mümkün olsun. Əgər hoteldə keçirilirsə, hotellərin təhlükəsizliyi qorunur. Zərurət olarsa, təhlükəsizlik üçün yardım istənilir. Burada təkcə hüquq-mühafizə orqanları dedikdə bir sahə nəzərdə tutulmur, polislər də prosesdə iştirak edə bilərlər. Belə toplantılar təhlükəsizlik yüksək səviyyədə olan yerlərdə keçirilir. Bakıda da beşulduzlu hotellər kifayət qədərdir. Bu hotellərin təhlükəsizlik xidməti polis idarələri və xüsusi təhlükəsizlik orqanları ilə əlaqəli şəkildə çalışırlar. Belə tədbirlərdə hansı məsələlərin müzakirə olunduğunu demək çətindir. Çünki iclaslarda kənar şəxslər iştirak etmirlər".

**Keçmiş MTN polkovniki İlham İsmayıl hesab edir ki, masonların Bakını toplantı üçün seçmələrinə şəhərin maraqlı gəlməsi də səbəb ola bilər:** "Mason deyilən məsələ, açığı, mənim üçün az inandırıcıdır. Masonlar agentlik edirlər, informasiya verir, xüsusi xidmət orqanlarının əllərində vasitə olurlar. Mason dünyanı idarə etmir. Bu təşkilatı lap mərkəzləşdirsinlər, Bakıda toplantı keçirsinlər, nə mənası var? Bakıda masonun olduğunu dəqiq bilən varmı? Bu sualları aydınlaşdırmaq lazımdır. Məsələlər qeyri-müəyyəndir. Ona görə dəqiq fikir bildirmək çətindir. Onların adı masondursa, adətən informasiya vermirlər. İstəyirlər ki, onlar barəsində dramatik təsəvvürlər olsun. Ona görə məxfiliyə önəm verirlər. Bu baxımdan, iclas keçirərkən təhlükəsizlik orqanlarını xəbərdar etmələri inandırıcı deyil. Bu tipli şəxslərin mühafizəçiləri ola bilər - görüntü yaratmaq üçün. Yoxsa dövlət adamları deyillər ki, mühafizələri təşkil edilsin. Mason məsələsinə az inandığım üçün hansı məsələləri iclaslarında müzakirə etdikləri barədə falçılıq edə bilmərəm. Onlar elə təsəvvür yaradırlar ki, guya yeraltı dünyanın insanlarıdırlar".



**Sülhəddin Əkbər:** "Bakıda onlara dəstək verənlər var"



**İlham İsmayıl:** "Onlar elə təsəvvür yaradırlar ki, guya yeraltı dünyanın insanlarıdırlar"

❑ Cavanşir ABBASLI

---

**Maliyyə Nazirliyi ləğv edilmiş Milli Təhlükəzilik Nazirliyində (MTN) yoxlamanı başa çatdırıb. Yoxlama zamanı büdcədən ayrılan vəsaitlərin mənimsənilməsi faktları üzə çıxıb. Bu haqda gununsesi.info məlumat yayıb. Sayt yazır ki, Maliyyə Nazirliyinin MTN-də Eldar Mahmudov dönəminin maliyyə fəaliyyətinin yoxlanması zamanı külli miqdarda mənimsəmə faktları aşkarlanıb. Məlum olub ki, Eldar Mahmudov və onun dəstəsi büdcə vəsaitlərini talan edərək, hər il 7-8 milyon manat vəsait mənimsəyiblər. Belə ki, nazir dövlət büdcəsindən agentura şəbəkəsinin saxlanması, paytaxtda agentlərlə görüş üçün kirayə mənzillərin tutulması, MTN-in nəzarətində olan jurnalistlərin və QHT rəhbərlərinin "paket" maaşlarının "qaralama siyahıda" 3-4 dəfə azaldılması faktlarını ortaya çıxıb.**



# Maliyyə Nazirliyinin "MTN yoxlaması" bitdi

## Bu, Eldar Mahmudovun həbsinə hazırlıq kimi qiymətləndirilir

Amma maraqlısı odur ki, Maliyyə Nazirliyinin yoxlamaları 20 gün öncə başa çatsa da, nədənsə nazirlik susmağa üstünlük verir. Maliyyə Nazirliyinin büdcə vəsaitlərinin talanması ilə bağlı faktları Baş Prokuror Yanında Korrupsiyaya Qarşı Mübarizə İdarəsinə təqdim edəcəyi gözlənilsə də, hələlik bu baş verməyib. Maliyyə Nazirliyindən məsələyə münasibət bildirməyiblər.

Eldar Mahmudovun nazir olduğu dövrdə MTN-in gizli görüşlər üçün nəzərdə tutulan mənzillərinin satılması faktları haqda da xəbərlər var. Məlumata görə, sabiq MTN rəhbərliyi və bu qurumun bəzi rayon şöbələrinin rəhbərləri ləğv olunmuş MTN-in balansında olan xidməti mənzilləri, konspirativ görüşlər üçün nəzərdə tutulan evləri satıblar.

Satılma planlı şəkildə həyata keçirilib. Əvvəlcə keçmiş MTN-in balansında olan, MTN əməkdaşlarının yaşayışı və ya görüş yerləri kimi nəzərdə tutulan mənzillər özəlləşdirilib və digər şəxslərin adına keçirilərək satılıb. Yalnız Bakıda deyil, bir neçə rayonda da özünü sabiq MTN rəhbərliyinə müstəsna dərəcədə yaxın hesab edən, törətdiyi əmələ görə məsuliyyətə cəlb edilməyəcəyindən əmin olan bəzi rayon şöbələrinin rəhbərləri də bu cür əmələ yol veriblər. Belə məlumatlar var ki, Maliyyə Nazirliyinin yoxlamasının nəticələri "yuxarılar"la razılaşdırıldıqdan sonra hesabatda yer alan qanunsuzluqlara dair faktlar araşdırılmaq üçün müvafiq orqanlara göndəriləcək.

Bu halda MTN-in MTK-ya *(Mənzil Tikinti Kooperativi)* çevrilməsinə görə birbaşa məsuliyyət daşıyan şəxsin sabiq nazir olması birmənalıdır. Bu faktlardan biri təsdiqlənəcəyi təqdirdə Eldar Mahmudovun həbsi üçün ciddi əsaslar yaranacaq. Sabiq naziri mənzil satışına görə həbs edib digər epizodlar üzrə də ona ittiham elan edə bilərlər.

Bundan başqa, Maliyyə Nazirliyi Eldar Mahmudovun qudası Cahangir Hacıyevin həbsə alındığı "Beynəlxalq Bank işi" üzrə də əsas iddiaçı qurumlardan biridir.

Bir müddət əvvəl qəzetimizə müsahibə verən C.Hacıyevin vəkili Aqil Layıcov da təsdiqləmişdi ki, iş üzrə istintaqı Daxili İşlər Nazirliyi Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsi aparsa da, yoxlamalara nəzarəti Maliyyə Nazirliyi həyata keçirir.

Hazırda "MTN işi" üzrə Baş Prokurorluğun Ağır Cinayətlərə Dair İşlər üzrə İstintaq İdarəsində, "Beynəlxalq Bank işi" üzrə isə Daxili İşlər Nazirliyi Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsində araşdırmalar davam etdirilir.

Bu işlərin eyni icraatda araşdırılması mümkünsüz görünsə də, E.Mahmudovla C.Hacıyevin şəxsi münasibətlərinə söykənən əməllərin bir çoxu da hazırda araşdırma mövzusudur.

Eldar Mahmudovun indiyə qədər həbs edilməməsinin səbəbləri ilə bağlı çoxsaylı mülahizələr var. Bu sırada Eldar Mahmudovun əlində ciddi kompromatların olması ilk yeri tutur. Bəzi ekspertlər hesab edir ki, keçmiş nazir hakimiyyəti əlindəki kompromatlarla şantaj edir. Bir müddət əvvəl Eldar Mahmudovun əlində ölkənin tanınmış şəxsləri və məmurlar barəsində 2800 ədəd intim videonun olması barədə məlumat yayıldı. Bundan əvvəl isə Azərbaycan haqda heç vaxt xəbər yazmayan bir jurnalda MTN-lə Beynəlxalq Bankda aparılan maliyyə yoxlamalarına nəzarət edən orqanın rəhbəri - maliyyə naziri Samir Şərifov haqda "üçqat agent" iddiası ortaya atılmışdı. Bu iddia ictimailəşəndən sonra bütün diqqət Eldar Mahmudovla onun qudası Cahangir Hacıyevin üzərində cəmləşmişdi. Ekspertlər bunu Eldar Mahmudov-Cahangir Hacıyev tandeminin şantajı kimi qiymətləndirirdi. Bundan sonra 2800 video məsələsi gündəmə gəldi. Hətta iddia olundu ki, bu videolardan bəziləri yayıla bilər. Bu məlumatdan sonra isə Eldar Mahmudovun ölüm xəbəri yayıldı. Bu isə qarşı tərəfin dövriyyəyə buraxdığı məlumat kimi dəyərləndirildi. Rəsmi qurumların məlumata heç bir reaksiya verməməsi bu ehtimalı bir qədər də gücləndirdi. Ekspertlər hesab edirdi ki, bu məlumatlar dövriyyəyə buraxılmaqla Eldar Mahmudovun şantaj çetesinin reaksiyası yoxlanılır və əks addımların atılmasına hazırlıqlar görülür.

Bundan başqa, "Azadlıq" məlumat yaymışdı ki, Eldar Mahmudovun şantaj hədəsinə cavab olaraq ona qarşı vətənə xəyanət ittihamı irəli sürülməsi barədə plan var. Bütün bunlar onu göstərir ki, hakimiyyət narahat olsa da, Eldar Mahmudovun qarşısında geri çəkilmək niyyətində deyil. Görünür, artıq Eldar Mahmudov da bunun fərqindədir. O, istənilən halda həbs olunacağını başa düşür.

❑ E.HÜSEYNOV

# Onlar barışdı, biz nə itirəcəyik?

## Ekspertlər Rusiya-Türkiyə əlaqələrinin normallaşmasının Azərbaycana mümkün neqativ iqtisadi təsirlərindən danışdılar

**Türkiyə -Rusiya barışığı baş tutdu. Təbii ki, Azərbaycan bu prosesdə maraqlı ölkələrdən biri idi və əldə olunan barışıqda Azərbaycanın da payı böyükdür. Lakin siyasi və geostrateji baxımdan Azərbaycana qonşu olan bu iki ölkənin barışması müsbət hal olsa da, iqtisadi baxımdan ölkəmizin ziyanına işlədi.**

Söhbət Azərbaycanın kənd təsərrüfatı məhsullarının Rusiya bazarlarına ixracından, rusiyalı turistlərin Türkiyəyə alternativ olaraq Azərbaycana üz tutmasından, ölkəmizin tranzit rolunun artmasından və "Türk axını" layihəsi reallaşarsa, kölgədə qalacaq Cənub Qaz Dəhlizi layihəsindən gedir. İqtisadçı ekspertlər də hesab edir ki, Türkiyə və Rusiyanın iqtisadi əməkdaşlığının yenidən başlaması Azərbaycanın rəqabət qabiliyyətini zəiflədə bilər.

**İqtisadçı ekspert Vüqar Bayramov** bildirdi ki, iki ölkənin barışması və Türkiyənin yenidən Rusiya bazarına daxil olması Azərbaycanın ixrac imkanlarını məhdudlaşdıra bilər: "Azərbaycan Türkiyə ilə Rusiyanın yaxınlaşmasında maraqlıdır və burada geosiyasi maraqları var. Bu iki ölkənin münasibətlərinin gərginləşməsi Azərbaycanla konflikti olan ölkələrin, o cümlədən Ermənistanın xeyrinədir. Lakin məsələnin iqtisadi tərəfləri də var. Düşünürəm ki, Türkiyə və Rusiya şirkətləri münasibətləri qısa zamanda əvvəlki vəziyyətə qaytara bilsin. Müəyyən zaman kəsiyində mərhələli şəkildə Türkiyə şirkətlərinin Rusiya bazarına daxil olması müşahidə olunacaq. Türkiyənin Rusiya bazarından çəkilməsi Azərbaycan fermerləri üçün ixrac baxımından yeni imkanlar açmışdı. Rusiya bazarına Azərbaycandan daha çox aqrar məhsulların ixracı müşahidə olunurdu. Yeni münasibətlər mərhələli şəkildə Azərbaycanın aqrar məhsullarının Rusiya bazarına daxil olmasına təsir göstərə bilər. Lakin onu da nəzərə almaq lazımdır ki, Azərbaycanın ixrac potensialı da limitsiz deyil. Türkiyə Rusiya bazarında olmasa belə, ölkəmizin Rusiya bazarına bir anda bir neçə dəfə artıq məhsul çıxartmaq imkanı yox idi. Yerli kənd təsərrüfatı məhsullarının artırılması üçün isə zamana ehtiyac var idi. Sözsüz ki, son proseslərin Azərbaycan məhsullarına təsiri olacaq və məhsullarımız Rusiya bazarında əvvəlki mövqeyini itirəcək".

**V. Bayramov onu da vurğuladı ki, Türkiyə ilə Rusiyanın barışması həmçinin, Azərbaycanın tranzit yükdaşımaları sahəsində Rusiyanın güclü rəqabəti ilə qarşılaşmasına səbəb olacaq:** "Bu, Azərbaycanda sözügedən sahədə islahatların aparılmasını gündəmə gətirəcək. Ciddi islahatlar aparılarsa Azərbaycan tranzit olaraq, daha çox məhsulların ölkə ərazisindən daşınmasını təmin edə bilər. Əvvəlki dövrlərdə Türkiyə iş adamlarının Rusiya üzərindən öz məhsullarını Asiya bazarına çıxarmasının səbəblərindən biri Rusiyada tariflərin aşağı olması, ölkəmizdə isə bürokratik maneələrin çox olması ilə bağlı idi. Əksər ölkələrdə vahid tarif tətbiq edilir və Azərbaycanın da bu tarifə qoşulması gözlənilir. Vahid tariflərin tətbiqi, sistemin şəffaflaşması, süni baryerlərin aradan qaldırılması həyata keçirilərsə, iki ölkə münasibətlərinin düzəlməsindən sonra da Azərbaycan Türkiyə yüklərinin öz ərazisindən daşınmasına nail ola bilər. Bu baxımdan Türkiyə-Rusiya münasibətlərinin yaxşılaşmasının Azərbaycan üçün müsbət tərəfi ondan ibarətdir ki, ölkəmiz beynəlxalq yükdaşımalar sahəsində daha çox rəqabətlə üzləşəcək və islahatların aparılması zərurəti yaranacaq".

**Üçüncü bir məsələ turizmlə bağlıdır və ehtimal olunur ki, Putinlə Ərdoğanın barışmasından sonra rusiyalı turistlərin mərhələli şəkildə Türkiyəyə üz tutması prosesi sürətlənəcək.**

**İqtisadçı ekspert isə əmindir ki, Türkiyəyə gedən turistlərin sayında artımlar olsa da, əvvəlki səviyyəyə qayıtmaq mümkün olmayacaq:** "Türkiyədəki terror hadisələri də bu prosesə öz təsirini göstərəcək. Azərbaycanda turistlər üçün gündəlik yataq yerlərinin sayı 37 mindir. Bu isə o deməkdir ki, ən yaxşı halda ölkənin bütün regionlarında fəaliyyət göstərən hotellərdə maksimum 37 min nəfər eyni anda dincələ bilər. Demək, Azərbaycan Rusiyadan Türkiyəyə gedəcək turistlərin böyük əksəriyyətini qonaq etmək imkanlarına malik deyil. Ona görə də düşünürəm ki, bu barışıq Azərbaycana gələcək turistlərin sayına təsir göstərsin. Ölkəmizə gələn rus turistlər daha çox müalicəvi turizmə üstünlük verirlər, Türkiyəyə gedənlər isə daha çox istirahət məqsədilə gedirlər. Ona görə də düşünürəm ki, Azərbaycan turizmi Türkiyə-Rusiya münasibətlərinin gərgin olduğu dövrdə daha çox turist cəlb edə bilər".



**Neft Araşdırmalar Mərkəzinin rəhbəri İlham Şaban "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, "Türk axını" layihəsinin yenidən gündəmə gəlməsi reallaşa bilər, lakin bu, TANAP üçün təhlükə deyil:** "Türkiyə ilə Rusiyanın münasibətləri pozulmazdan öncə "Türk axını" layihəsi iki ölkə arasında gerçəkləşmə səviyyəsinə qədər inkişaf etməmişdi. Yəni 2014-cü ilin dekabrında bununla bağlı ancaq niyyət ortaya qoyulmuşdu, protokol imzalanmışdı. Bundan sonrakı dövrdə isə "POTAŞ"la "QAZPROM" arasında, o cümlədən hökumətlər arasında bu layihənin kommersiya səviyyəsinə qədər inkişafı müşahidə olunmadı. Bu da iki ölkə arasında sırf iqtisadi məsələlərlə bağlı olan fikir ayrılığının nəticəsi idi. Ona görə də təyyarə hadisəsindən sonra iki ölkə arasında gərginlik yaşandı, qarşılıqlı sanksiyalar tətbiq edildi. Hazırda bu məsələlərin aradan qaldırılmasına qədər bir zaman keçməlidir. Çünki hər iki ölkə bir-birinə qarşı qanunverici aktlar qəbul ediblər. "Türk axını" layihəsinə gəlincə, bu, sadəcə, ideyadır və ortada kommersiya baxımından real bir məsələ yoxdur. 65 milyard kubmetrlik bir layihənin azaldılmış bir variantı üzərində dayanmışdılar və layihənin 4 qolundan ikisi ixtisara düşmüşdü. Biri Türkiyənin ehtiyaclarının ödənməsi üçün çəkilməli idi, ikincisi isə Türkiyədən tranzit yolu ilə keçməklə Yunanıstana getməli idi. Borular alınıb, bu baxımdan "QAZPROM"un marağındadır ki, onlardan istifadə etsinlər. Çox güman ki, gec-tez "Türk axını" layihəsi gerçəkləşəcək. Türkiyə Almaniyadan sonra "QAZPROM"un ikinci ən böyük müştərisidir və təqribən ildə 57 milyard kubmetr qaz satır. Ona görə də Rusiya üçün Türkiyəyə qaz satmaq əlverişlidir. Hesab edirəm ki, ən azından "Türk axını" layihəsinin birinci hissəsi çəkiləcək və Türkiyə o qazdan yararlanacaq. Lakin bu prosesin nə qədər çəkəcəyini demək çətindir. Digər tərəfdən artıq Azərbaycan 2017-ci ilin sonunda TANAP layihəsini bitirir. Ona görə də hesab edirəm ki, "Türk axını" layihəsi reallaşdığı təqdirdə, bu, TANAP üçün təhlükə olacaq. Türkiyə Azərbaycandan da, Rusiyadan da qaz alacaq. Biz də Avropa ölkələrində rus qazına rəqib olacağıq. Yeni qaz alan ölkələrin məqsədi rəqabətli bazar formalaşdırmaqdır. Qarşıdakı illər məhz rəqabətli bazar formalaşdırmağı hədəf götürüb".

❑ **Nərgiz LİFTİYEVA**

---

# Hacı Məmmədovun yeri bilinmir



Hacı Məmmədov

**Daxili İşlər Nazirliyinin (DİN) həbsdə olan sabiq baş əməliyyat müvəkkili Hacı Məmmədov Penitensiar Xidmətin Binə qəsəbəsində yerləşən ixtisaslaşdırılmış müalicə müəssisəsindən köçürülüb. Bu haqda redaksiyamıza daxil olan məlumatda bildirilir ki, məşhur arestantı bir müddət əvvəl Qobustan Qapalı Həbsxanasına köçürülmə adı ilə müalicə müəssisəsindən çıxarıblar. Qeyd edək ki, H.Məmmədovu 2005-ci ildə həbs ediləndən sonra Milli Təhlükəsizlik Nazirliyinin istintaq təcridxanasında saxlayırdılar. 2015-ci ildə MTN-dəki məlum hadisələr baş verəndən və qurum ləğv olunandan sonra H.Məmmədovun digər ömürlük məhbuslar kimi Qobustan qapalı həbsxanasına köçürüləcəyi gözlənilirdi.**

2016-cı ilin mayında H.Məmmədovu artıq Dövlət Təhlükəsizlik Xidmətinə çevrilmiş qurumun istintaq təcridxanasından nəhayət ki, köçürdülər. Həmin vaxt H.Məmmədovun vəkili Afət Qazıyeva müvəkkilinin səhhətindəki problemlərlə bağlı Dövlət Təhlükəsizlik Xidmətinin (DTX) istintaq təcridxanasından Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin Müalicə Müəssisəsinə köçürüldüyünü təsdiqləmişdi.

İyunun 30-da A.Qazıyeva ilə əlaqə saxlayıb Hacı Məmmədovun Qobustan Qapalı Həbsxanasına köçürülməsi ilə bağlı xəbərə münasibətini öyrəndik. Vəkil "məndə bu haqda məlumat yoxdur" deyib telefonu qapatdı. Penitensiar Xidmətin ictimaiyyətlə əlaqələr şöbəsindən məsələ ilə bağlı məlumat vermək səlahiyyətlərinin olmadığını deyiblər.

Digər bir məlumata görə, Hacı Məmmədov Dövlət Təhlükəsizlik Xidmətinin istintaq təcridxanasına qaytarılıb.

❑ **E.MƏMMƏDƏLİYEV**

---




# "Mahmudovçuların" şərlədiyi şəxsə bəraət verilib

**İyunun 30-da Bakı Apelyasiya Məhkəməsində hakim Qədim Babayevin sədrliyi ilə Fuad Nəcəf haqda Nəsimi Məhkəməsinin çıxardığı bəraət hökmü qüvvədə saxlanılıb. F.Nəcəf ləğv edilmiş Milli Təhlükəsizlik Nazirliyi (MTN) əməkdaşları tərəfindən keçirilən əməliyyat nəticəsində saxlanılıb. O, narkotik maddələrin istifadəsində təqsirləndirilib. Sonradan barəsində Nəsimi Rayon Məhkəməsi bəraət hökmü çıxarıb. Həmin hökmdən prokurorluğun verdiyi protestə Bakı Apelyasiya Məhkəməsində baxılıb və hökm qüvvədə saxlanılıb.**

Bu haqda "Yeni Müsavat"a F.Nəcəfin vəkili Adəm Məmmədov məlumat verib. Vəkil bildirib ki, təqsirləndirilən Fuad Nəcəf keçmiş MTN-in əməkdaşları Elnur İbrahimov, Yunis Ələkbərov və Əfqan Səfərov tərəfindən qanunsuz olaraq saxlanılıb. F.Nəcəfi döyərək yaşadığı mənzilə aparıblar və bir müddət axtarış apardıqdan sonra 13 saylı Mənzil Kommunal İstismar Sahəsinə zəng edərək oradan 2 nəfər hal şahidinin göndərilməsini tələb ediblər.

Vəkil deyir ki, məhkəmə istintaqı zamanı keçmiş MTN-in əməkdaşları tərəfindən çağırılmış hal şahidləri ifadələrində göstəriblər ki, mənzilə daxil olan zaman əməliyyat müvəkkili E.İbrahimov əlindəki bükülünü göstərərək içərisində narkotik maddə - kokain olduğunu və təqsirləndirilən şəxsin üzərindən çıxdığını deyib.

"Hal şahidləri təqsirləndirilən şəxsin üzərinə baxış keçirərkən orada olmayıblar və bu istintaq hərəkətində iştirak etmədiklərini, bu barədə tərtib edilmiş baxış protokolunu oxumadan imza etdiklərini göstəriblər.

Bundan başqa, keçmiş MTN-in əməkdaşları tərəfindən hüquqlarını müdafiə etdiyim şəxsi öz mənzilinə döyərək gətirdikləri zaman sonuncunun evinin giriş hissəsində olan müşahidə kamerası olanları qeydə alıb. Həmin çəkilişdən də görünür ki, tutulan şəxsin üzərinə baxış istintaq hərəkəti hal şahidlərinin iştirakı olmadan keçirilib. Eyni zamanda müşahidə kamerasının qeydə aldığı çəkilişdən də görünür ki, Fuad Valeh oğlu Nəcəfin gözünün altı zərbədən qançır olub" deyə, vəkil bildirib.

❑ **E.HÜSEYNOV**



# Gecənin qorxunc qaraltıları

Zamin HACI
zaminhaci@gmail.com

**Hardasa 6 il qabaq İsrail "Qəzzaya azadlıq" şüarı ilə Türkiyədən gedən gəmiyə basqın eləmişdi, 10 nəfəri öldürmüşdülər. Bundan sonra Türkiyə prezidenti Ərdoğan İsraillə bütün diplomatik əlaqələri kəsmişdi, əsas şərtlərdən biri də Qəzzanın blokadasının ləğvi idi.**

İndi üstündən 6 il keçib, bu 6 ildə Türkiyənin xarici-daxili siyasəti "uzun adamın" *(Ərdoğana orada belə deyirlər)* dilinin uzunluğunun, mənasız hikkələrinin altını çəkərək altı min bəlaya düçar oldu. Türkiyənin yaxınında, uzağında ona düşmən olmayan bir dövlət də qalmadı - Azərbaycanı çıxsaq. Hər halda, ziyanın harasından qayıtsan xeyirdir, nə yaxşı Ərdoğan boş yerə ora-bura kəllə atmağın mənasızlığını anlayıb indi ətraf dövlətlərlə münasibətləri düzəltməyə çalışır. Bunların içində İsrail də var. İndi bir sual ortaya çıxır ki, bəs altı illik boşboğazlıq hara getdi? Qəzzanın blokadası yerində durur axı?!

Qədim aforizmdə deyilən kimi, "qayıdaq öz qoyunlarımızın yanına". Bugünlərdə Ağdaş rayonundan çox təşviş dolu xəbərlər gəlir. Yox, İqbal Ağazadənin deputatxana yolunun bu dəfə də bağlanmasını nəzərdə tutmuram. Orda nəsə saqqallı adamlar peyda olmuşdur *(bəlkə də Ümid Partiyasının seçki müşahidəçiləridir)*, gecələr kənddə dolaşıb arvad-uşağı qorxudurmuşlar. Çox maraqlıdır ki, bu naməlum adamlar indiyə qədər kimsəyə hər hansı pislik etməyiblər, eləcə həyət-bacada dolaşır, bəzi yerlərə işıq salırlar, ev yiyəsi eşiyə çıxanda isə hasardan, çəpərdən aşıb qaçırlar. Bəs camaat bu dinc "qulyabanılardan" niyə qorxur? Xalqlar var Qəzzanın blokadasını düşünür, siz isə evdən çıxmırsınız, nədir-nədir kiminsə qaraltısı görünmüşdür...

Fikrimcə, hamısı ictimai-siyasi sabitliyin mənfi təzahürləridir. Adamlar AXC-Müsavat cütlüyünün hakimiyyətdə olduğu yüz illər ərzində o qədər qorxaq, məzlum, gözüqıpıq yaşayıblar ki, indiki hakimiyyətin sabitliyindən lazımi dərəcədə həzz almaqda çətinlik çəkirlər. O vaxt da gecələr küçəyə çıxa bilmirdilər, indi də çıxa bilmirlər. Ta bu qədirbilməz millətə necə xidmət göstərəsən, məlum deyil. Bəlkə hərənizin qoltuğuna girib gecələr küçədə gəzdirməyə bir icra hakimi, nazir müavini, bulvar idarəsinin əməkdaşı ayrılsın? Ayıbdır axı. Bu dövlət, bu hakimiyyət daha sizin üçün nə etməlidir ki, ürəkli olasınız?

Nazir müavini demişkən, bugünlərdə Maliyyə Nazirliyinə təzə bir müavin qoyuldu, millətimizin yarısı sevindiyindən qəşş elədi. Sən demə, bu cavan oğlan Harvard Universitetində hansısa kurs oxumuşdur. Bundan qabaq Mərkəzi Bankda, ADA Universitetində *(universitet Nargində yerləşdiyi üçün belə adlanır)* çalışan gəncə insanlarımız böyük ümidlər bəsləyir, deyirlər indən belə dövlət büdcəsi vəsaitlərinə yüksək nəzarət ediləcəkdir. Halbuki son illərin bir çox kadr "islahatları" göstərib ki, bizim milli "Narxoz"umuz yüz dənə Harvarddan qeyrətli universitetdir. Rüşvət alanda insafla alır, millətin ətini yeyəndə sümüyünü atmırlar. Öz təhsilimiz, öz pomidorumuz, öz musiqimiz. Öz həkimlərimiz, öz balta-mişarımız! Vətən sağ olsun!

Bax, hamının başı o nazir müavininə, həmçinin Ərdoğanın Putinə yazdığı məktuba qarışdı, çox ciddi bir kadr islahatımız gözdən yayındı. Halbuki əsas gündəm bu olmalı idi: keçən həftə dövlət başçısının sərəncamları ilə Bakı Dövlət Bulvar İdarəsinə 2 rəis müavini təyin edildi! İdarəyə qoyulan bu iki müavin bulvarın işinin daha səmərəli təşkilinə, orada dövlətçiliyin, Azərbaycanın gələcəyinin, o cümlədən Qarabağ münaqişəsinin tənzimlənməsinə böyük töhfələr verəcəkdir.

Dünyanın başqa heç bir ölkəsində Nazirlər Kabineti daxilində Dövlət Bulvar İdarəsi yaradılmayıb. Həmçinin bulvar idarəsinə müavinlər, ağac budayanlar, çayxana işlədənlər, dondurma satanlar, qayıqda adam gəzdirənlər, siçan paltarı geyinib şəkil çəkdirənlər bu cür ali səviyyədə işə qoyulmur.

Son olaraq üzümü əlaqədar təşkilatlara tutub demək istəyirəm: Azərbaycan mayası nur, qayəsi nur!

# Dostlar məmnun, düşmənlər üzüntü içində...




# Rus-türk barışığı Ermənistanı yasa batırdı - mühüm gəlişmə

## Barışıq iki ölkə ilə yanaşı, Qarabağ üçün də təzə səhifə aça bilər, Ərdoğan-Putin anlaşması münaqişənin həllində pozitiv gözlənti vəd edir; Ermənistan hava məkanını rəsmən Rusiyaya verdi - tezləşən qərarın pərdəarxası...

**Türkiyə-Rusiya münasibətlərinin 7 aylıq fasilədən sonra böhrandan çıxması ilə region, nəhayət, rahat nəfəs aldı. Bu hadisə şübhə yox ki, böyük bir bölgədə pozitiv siyasi ab-hava yaradacaq, regionda çoxdan öz həllini gözləyən dondurulmuş və qaynar münaqişələrin yoluna qoyulması üçün daha əlverişli zəminin yaranmasına stimul verəcək.**

Rusiya ilə Türkiyənin yenidən yaxınlaşması son günlərin, hətta ayların ən ciddi və önəmli hadisəsi sayıla bilər. Bu barışıq sözsüz ki, iki böyük dövlətin regional problemlərin həllində ortaq əməkdaşlığını təzədən gündəmə gətirəcək, iki və çoxtərəfli formatlarda iqtisadi, ticari, energetik, başqa sahələr üzrə əməkdaşlığı gücləndirəcək.

Söhbət həm də Qarabağ məsələsi ətrafında yaranan və kifayət qədər yeni sayıla biləcək situasiyadan gedir...

***

Təsadüfi deyil ki, barışıq olayı ən çox Rusiyada, Türkiyədə və Azərbaycanda məmnunluq yaradıb, sevinc hissi ilə qarşılanıb. Ermənistan isə az qala, üzüntü içindədir. Bunu erməni mediası və cəmiyyətinin, elə həm də siyasilərinin Ərdoğan-Putin barışına verdiyi ehtiyatlı və ürkək reaksiyalardan sezməmək mümkün deyil.

Səbəb aydındır. Çünki mənfur qonşular daima türk-rus işbirliyindən, bundan da çox isə Bakı-Moskva-Ankara işbirliyindən narahat olublar. Hətta ötən ilin noyabrına - "Su 24" insidentinədək erməni ictimai-siyasi dairələrində belə bir qənaət formalaşmışdı ki, Bakı-Moskva-Ankara "üçbucağı" Qarabağa dair Ermənistanın ziyanına olan hansısa layihə üzərində işləyir, işbirliyi içindədir.

Ermənistanın yeni təlaşı da əsassız deyil. İrəvanı məyus edən, qayğılandıran həm də odur ki, Moskva-Ankara barışığının baş tutmasında Azərbaycanın, onun prezident İlham Əliyevin məxsusi rolu olub ki, bu da ölkəmizin Kreml yanında nüfuz və önəmini təsdiqləyən amildir.

Yeri gəlmişkən, "Yeni Müsavat"a çatan bilgilərə görə, Azərbaycan tərəfdən barışıq prosesində iştirak edən nüfuzlu şəxslər hələ də Türkiyədədir və öz missiyalarını davam etdirirlər. Aldığımız məlumatlarda deyilir ki, özü də söhbət təkcə Ərdoğanla Putinin şəxsi planda əlaqələrinin bərpasından deyil, iqtisadi, siyasi və digər sahələrdə qırılmış əlaqələrin tam həcmdə və sürətli bərpasından gedir. Bildiyimiz qədər barışıq prosesi gözlənidiyindən də sürətli gedir və hətta Türkiyə-Rusiya münasibətlərinin Osmanlı dönəmindən bu yana heç vaxt belə isti olmadığı deyilir.

Təbii ki, bütün bunlar işğalçı ölkəni və onun rəhbərliyini, toplumunu narahat edən gəlişmələrdir. Telefon danışığı zamanı Putinin Ərdoğana verdiyi mesajlar da şübhəsiz ki, ermənilərin ovqatını hələ uzun müddət təlx edəcək. Məsələn, Rusiya prezidenti türkiyəli həmkarına belə deyib: **"Təkrar sizinlə danışmaqdan böyük məmnunluq duyuram", "Mövcud vəziyyət hər iki ölkənin xeyrinə deyil, yeni səhifə açmalıyıq", "Bölgənin iki böyük dövləti olaraq Türkiyə və Rusiyanın etməli olduğu işlər var".**

***

Maraqlıdır ki, Ərdoğan-Putin telefon zəngindən cəmi bir gün sonra Ermənistan parlamenti Rusiya ilə mübahisəli ortaq raketdən müdafiə regional sisteminin (HHM) yaradılması haqda ötən ilin dekabrında iki ölkə müdafiə nazirləri arasında imzalanmış müqaviləni ratifikasiya edib. Müqavilənin müddəti 5 ildir və bu müddətdən sonra tərəflərin razılığı ilə artırıla bilər.

Yada salaq ki, ratifikasiyaya qarşı neçə vaxtdır Ermənistanda etirazlar var idi. Bir sıra tanınmış ictimai-siyasi xadimlər də onun əleyhinə idilər. Narazılığın əsas motivi isə bu idi ki, İrəvan öz hava məkanını da Rusiyanın nəzarətinə verməklə özünün olan-qalan suverenliyini də itirəcək.

Bu üzdən ratifikasiyanın ilkin cəhdlər baş tutmamış, qeyri-müəyyən vaxta qədər, hətta iki aylığa təxirə salınmışdı. Bəzi iddialara görə, İrəvan ratifikasiya məsələsini əslində Rusiyanın ona 200 milyon dollarlıq kredit həcmində boyun olduğu silahların verilməsi ilə əlaqələndirməyə çalışır - yəni şərt məsələsi. Ancaq hələ ki silahlardan xəbər yoxdur. Amma ratifikasiya tezləşdi.

Böyük ehtimalla, aparıcı səbəblərdən biri məhz Rusiya ilə Türkiyənin təzədən yaxınlaşmasından sonra yaranan və işğalçı ölkənin ziyanına olan situasiyadır. Sirr deyil ki, ermənilər ki, rus-türk barışığı və yaxınlaşmasından həmişə narahatlıq keçiriblər. Çünki Ankara-Moskva tərəfdaşlığını, deyildiyi kimi, Qarabağ məsələsi üçün daima neqativ amil, Azərbaycan üçünsə pozitiv faktor qismində qəbul ediblər. Mümkündür ki, Türkiyə-Rusiya əlaqələrinin bərpası Qarabağ ixtilafının həlli üçün yeni şans pəncərəsi də açsın.

Belə bir fonda, yeni bölgədə Ermənistanın Rusiya üçün geosiyasi və hərbi əhəmiyyətinin azalması, Azərbaycanla Türkiyənin isə artması fonunda İrəvanın Kremli izafi qıcıqlandırması əlbəttə ki, məntiqsiz görünər, Qarabağa məsələsində Ermənistanın ziyanına işləyərdi. Odur ki, Ərdoğan-Putin anlaşmasının ardınca Ermənistanda anti- Rusiya isterikası və ovqatının səngiyəcəyini gözləmək olar.

**Bu isterika artıq hiss olunmur da.**

❑ **Analitik xidmət**

# Azərbaycanın Ukraynadakı yeni səfiri ilə bağlı müəmma

## Pyotr Poroşenkonun Bakıya rəsmi səfəri zamanı bu məsələnin həllini tapacağı deyilir

**Iyulda Ukrayna prezidenti Pyotr Poroşenkonun Azərbaycana rəsmi səfəri baş tutacaq. Bu barədə virtualaz.org-a Ukrayna Prezidenti Administrasiyasından məlumatlı mənbələr xəbər veriblər. Səfərin dəqiq tarixi hələlik məlum deyil, iki ölkənin protokol xidmətləri müvafiq məsləhətləşmələr aparırlar.**

Bununla bağlı növbəti dəfə Ukraynaya Azərbaycan səfirinin təyinatı məsələsi aktuallaşır. Xatırladaq ki, iyun ayında Eynulla Mədətli bu vəzifədən geri çağırılmışdı və o vaxtdan bəri Azərbaycanın Ukraynadakı səfiri kreslosu boşdur.

"Azadlıq" qəzeti Azərbaycanın Ukraynadakı səfiri vəzifəsinə namizədin müəyyənləşdirildiyini yazıb. Qəzetə görə, bu vəzifəni Sloveniyada Azərbaycanın müvəqqəti işlər vəkili Azər Xudiyev tutacaq. "Azadlıq" iddia edir ki, müvafiq fərman ən yaxın zamanda dərc ediləcək.

Biz Ukraynadakı Azərbaycan səfirliyi ilə əlaqə saxladıq. Səfirlikdə A.Xudiyevin ölkəmizin Ukraynadakı səfiri vəzifəsinə təyinatı barədə məlumatların olmadığını bildirdilər.

Ümid etmək qalır ki, bu məsələ Ukrayna prezidenti Pyotr Poroşenkonun iyul ayında Bakıya rəsmi səfəri ilə əlaqədar ən yaxın vaxtda həllini tapacaq.

YENİ MÜSAVAT
N 143 (6464) 1 iyul 2016



# Varlılarımızın pulları Britaniyada batır

**Böyük Britaniyanın Avropa İttifaqını tərk etməsi dünya oliqarxlarını qorxuya salıb. Buna səbəb dünyanın əksər ölkələrindən varlıların kapitallarını ən çox bu dövlətə yatırım etmələridir. Öz ölkəsindən didərgin düşən, yaxud yüksək postlarda çalışan şəxslərin böyük məbləğdəki pul vəsaitlərini qorumaq üçün ilk üz tutduqları şəhər Britaniya paytaxtıdır. Lakin krallığın Aİ-ni tərk etməsi bu etibarın üzərindən xətt çəkdi. Təsadüfi deyil ki, Britaniya xalqının Avropa Birliyini tərk etməsi ilə bağlı qərarından sonra funt sterlinqin qiyməti bir gündə 10% dəyərdən düşüb. Bu isə dövlətlə yanaşı, "çirkli pulların" sahiblərinə də ciddi ziyan vurub.**

## Funt sterlinqin dəyərdən düşməsi azərbaycanlı oliqarxların da milyonları itirməsi deməkdir; sabiq maliyyə naziri müraciət etdi: "Vəsaitlərini çıxarsınlar və öz ölkəmizə yatırsınlar"

Azərbaycandan da zaman-zaman bu ölkəyə külli miqdarda pul vəsaitlərinin köçürülməsi barədə mediada xəbərlər dolaşıb. Son olaraq, sabiq milli təhlükəsizlik naziri Eldar Mahmudovun və hazırda həbsdə olan Beynəlxalq Bankın keçmiş prezidenti Cahangir Hacıyevin London banklarına böyük məbləğdə maliyyə kapitalı yatırmaları barədə xəbərlər yayıldı. Bu baxımdan Britaniyanın Aİ-dən gedişinin azərbaycanlı varlılara da ciddi zərbə olacağını təxmin etmək çətin deyil. Azərbaycan Dövlət Neft Fondunun Daşınmaz Əmlaka ilk sərmayə qoyuluşuna Londondan başlaması da təsadüf sayılmır. 2012-ci ildə ARDNF Londonun Vest End səmtində, Seynt Ceyms-78 ünvanında yerləşən və dəyəri 177,350 mln. funt sterlinq olan ofis kompleksini alıb. Britaniyanın qapılarını AB-nin üzünə bağlaması Neft Fondunun daşınmaz əmlakına da ziyan vura bilər. Bu isə milyonlarla vəsaitin itirilməsi deməkdir.

**İqtisadçı alim, sabiq maliyyə naziri Saleh Məmmədov Britaniyanın Aİ-ni tərk etməsinin Azərbaycana təsirinin olacağını bildirdi:** "Londonda dövlət və Neft Fondunun əmlakları var. Funt sterlinqin dəyərinin düşməsi qiymətlərin azalmasına səbəb olacaq. Qiymətlər düşəcəksə, burada da devalvasiya varsa, demək, bu şəxslərin əmlakları itiriləcək. Böyük Britaniya dünyada xarici borcları ən çox olan ölkədir. Xarici borclar dedikdə bəzən mətbuatda yanlış anlaşılır. Bu borclar dövlətin aldığı deyil. Orada bizdən, dünyanın bir çox ölkələrindən pul yatıranlar var. Dövlətlər də kapital yatırırlar. Bunların hamısı Böyük Britaniyanın xarici borcu kimi gedir. Bütün bunlar Britaniyanın ümumi vəziyyətinə ciddi təsir edəcək. Varlıların əmlaklarının qiymətdən düşməsinə səbəb olacaq. Pullar o ölkəyə daxil olur və funt sterlinqə çevrilir. İngiltərənin xarici borcu 9.6 trilyondur. Funt sterlinqin bir gündə 10% düşməsi borcun bir trilyon artmasına səbəb olur. Bunun da mənfi nəticələri qaçılmaz olacaq. Dünyanın demokratik ölkələrindən sayılan bir dövlətin belə səhvə yol verəcəyini düşünmürdüm. Bu gün qloballaşma prosesi gedir, dünyada sərhədlər açılır, belə bir şəraitdə proseslərə bu cür münasibət göstərmək pis təsir edəcək. Mövcud şərait Azərbaycan vətəndaşlarının əmlaklarının dəyərsizləşməsinə səbəb olacaq".



Saleh Məmmədov

**İqtisadçı alim Britaniya hökuməti və xalqının ciddi qazanc əldə edə bilməyəcəyini də qeyd etdi:** "Təbii ki, ayrı-ayrı alverçilər şəraitdən istifadə edib, qazanc əldə edəcəklər. Amma bunun hökumətə və xalqa aidiyyəti olmayacaq. Corc Soros əvvəlcədən ingilisləri xəbərdar etdi ki, birliyi tərk etsələr, funt sterlinqin dəyəri 20%-dək düşə bilər, bu da dövlətə mənfi təsir göstərəcək. Elə də oldu. Unutmamalıyıq ki, Corc Soros funt sterlinqin qiymətdən düşməsindən sonra o vaxtlar milyarder olmuşdu. Bazarda qiymətlərin oynaması ayrı-ayrı kapitalistlərin varlanmalarına səbəb olacaq. Hamı üçün itki ola bilməz. Biri qazanırsa, digəri itirir. Bu, bazar qanunun tələbləridir".

**Sabiq maliyyə naziri Britaniya hökumətinin varlılar qarşısında əvvəllər olan etibarını artıq itirdiyini söylədi:** "Britaniyanın reytinqi pozitivdən neqativə doğru dəyişdi. Çünki bu ölkədə külli miqdarda borc var. Hazırda hamı onu düşünür ki, oradan əmlaklarını çıxararaq, necə xilas etsinlər. Bugünlərdə bu proseslər açıq müstəviyə keçəcək. Varlılarımıza məsləhətim odur ki, vəsaitlərini çıxarsınlar və öz ölkəmizə yatırsınlar. Öz dövlətimiz və xalqımız inkişaf etməlidir. Bunun üçün dövlət də müəyyən qərarlar qəbul etməlidir. Oradakı vəsaitlərin taleyi yaxşı görünmür. Tamamilə bata bilər. Ən yaxşısı odur ki, öz ölkəmizdə yerləşdirsinlər".

❑ **Cavanşir ABBASLI**

# ABŞ keçmiş diplomatlarına niyə nəzarət edə bilmir?

## Dövlət Departamenti Con Evansın Qarabağa səfərinə reaksiya bildirməli və öz keçmiş nümayəndəsinin hərəkətini pisləməlidir

**ABŞ-ın Ermənistandakı 2004-2006-cı illərdə səfiri olmuş Con Evans Dağlıq Qarabağa səfər edib. Ermənistan mətbuatının yaydığı məlumata görə, o, "Ermənistan uşaqları" Fondunun Direktorlar Şurasının müşaviri qismində fondun sədri ilə birlikdə özünü Dağlıq Qarabağdakı qondarma rejimin lideri adlandıran Bako Saakyanla görüşüb.**

Məsələ ilə bağlı Azərbaycan **Xarici İşlər Nazirliyinin (XİN) mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev** bu addımı təxribat əməli adlandırıb. H.Hacıyev bildirib ki, C. Evans ABŞ erməni lobbisinin diktəsi altında və müəyyən maliyyə maraqları müqabilində bu qərəzli addımı ilə xüsusilə indiki həssas durumda qəsdən vəziyyətin gərginləşdirilməsinə cəhd göstərir: "Con Evansın kriminal mənşəli irqçi və radikal erməni lobbi təşkilatı olan Amerika erməni milli komitəsi ilə uzunmüddətli sıx əlaqələri heç kimə sirr deyil".

**XİN rəsmisi həmçinin onu da vurğulayıb ki, ABŞ-ın Ermənistanda səfiri olarkən vəzifəsindən sui-istifadə edən bu şəxs qatı ermənipərəst və irqçi mövqeyi ilə seçilib, təmsil etdiyi ölkənin deyil, daha çox erməni lobbisinin maraqlarından çıxış edib:** "Qeyri-peşəkarlığa və yol verdiyi xidməti qüsurlara görə vaxtından əvvəl səfir vəzifəsindən geri çağırılıb. Onun adı arzuolunmaz şəxslər siyahısına daxil ediləcək".

**Mövzu ilə bağlı "Yeni Müsavat"a danışan politoloq Elxan Şahinoğlu keçmiş səfirin addımını Azərbaycana xoş olmayan jest adlandırıb:** "Doğrudur, onun hazırda rəsmi olaraq heç bir statusu yoxdur. Əgər Evans səfir kimi ora getsəydi, bu lap biabırçılıq olardı və Amerika-Azərbaycan münasibətlərinə çox mənfi təsir edərdi. Ancaq indi o, şəxsi təşəbbüsü ilə Dağlıq Qarabağa səfər edib. Hər halda, Evans bilməli idi ki, Azərbaycanın icazəsi olmadan işğal atındakı torpaqlara səfər etməklə, bizim tərəfimizdən "qara siyahı"ya düşəcək. Belə də oldu. Artıq o, Azərbaycana gələ bilməz. Düşünürəm ki, əslində ABŞ Dövlət Departamenti də bu və ya digər şəkildə hadisəyə reaksiya bildirməli və öz keçmiş nümayəndəsinin hərəkətini pisləməlidir. Onlar açıq şəkildə bildirməlidirlər ki, Dağlıq Qarabağ Azərbaycan ərazisidir və oraya səfərlər yalnız Azərbaycanın icazəsi ilə mümkündür".



Con Evans

**Politoloq bildirib ki, Azərbaycan da bu hadisənin qarşılığında oxşar addım ata bilər:** "Misal üçün, Amerikanın da Azərbaycandakı keçmiş səfiri Stenli Eskuderonun Azərbaycan hakimiyyəti ilə çox sıx münasibətləri var. Səhv etmirəmsə onun Bakıda biznesi də var. Azərbaycan təşkil edə bilər ki, Eskudero bir qrup amerikalı ilə Qarabağın Azərbaycan hissəsinə getsin və orada öz gözləri ilə ermənilər tərəfindən dağıdılmış yerləri, hücuma məruz qalmış evləri ziyarət etsin. Bu da bizim cavab tədbirimiz olar. İnformasiya müharibəsi gedir, necə ki, ermənilər keçmiş səfirin Dağlıq Qarabağa səfərini təşkil edirlərsə, biz də eyni səviyyəli bir adamla bunu edə bilərik".

**E.Şahinoğlu Amerikanın vaxtilə Azərbaycanda səfiri olmuş bəzi şəxslərin ikili addımlarından da danışıb:** "ABŞ-ın Azərbaycandakı keçmiş səfiri Metyu Brayza İrəvanda bir açıqlama verirdi, Bakıda isə onun tam tərsini danışırdı. Eyni zamanda o, İrəvana gedəndə hər dəfə açıqlama verirdi və biz ona reaksiya verəndə də deyirdi ki, guya erməni mətbuatı fikirlərini yanlış dərc edib. Yəni bu adam açıqlamalarına bir o qədər də diqqət yetirmirdi. Çox təəssüf ki, qərbli diplomatlar bu kimi addımları tez-tez atırlar. Hesab edirəm ki, bu kimi halların yaranmaması üçün Azərbaycanın da üzərinə mühüm iş düşür. Bizim Diaspora Komitəmiz, Xarici İşlər Nazirliyimiz var ki, onlar birgə fəaliyyət göstərməlidirlər. Elə etmək lazımdır ki, Azərbaycanı beynəlxalq aləmdə dəstəkləyənlər arasında Qərbin tanınmış nümayəndələri də olsun. Keçmiş səfirləri ölkəyə dəvət etmək lazımdır. Ermənistan və erməni lobbisi bu istiqamət üzrə, görünür, çox canfəşanlıq edir. Halbuki Ermənistanın heç bu məsələlərə sərf edəcək pulu da yoxdur. Ancaq erməni lobbisi bu işləri görə bilir. Bizim xaricdə pis-yaxşı nümayəndələrimiz var. Onlar da addım atmalıdırlar".

**Politoloq bildirib ki, Amerika sözdə Azərbaycanın ərazi bütövlüyünü dəstəkləsə də başqa məqamlar da var:** "Amerika yeganə dövlətdir ki, bu illərə qədər tanınmayan, separatçı Dağlıq Qarabağ rejiminə maliyyə yardımı ayırır. Biz Rusiyanı tənqid edirik, ancaq Rusiya Dövlət Duması, yaxud da hökuməti Dağlıq Qarabağa rəsmi şəkildə maliyyə ayırmayıb. Halbuki Rusiyanı Ermənistanın müttəfiqi sayırıq. Çox təəssüf ki, Amerika Konqresi bu istiqamət üzrə addımlar atır. Diplomatların Dağlıq Qarabağa səfər etməsi xoş olmayan atmosfer yaradır. Amerikanı bir çox məsələlərdə strateji tərəfdar, müttəfiq sayıram. Çünki Amerika, Azərbaycanın inkişafında və xarici təzyiqləri dəf etməsində maraqlıdır. Bununla belə, görürük ki, Amerikada müəyyən mərkəzlər erməni lobbisinin təsiri altında Azərbaycanın ərazi bütövlüyünə zidd olan addımlar atıb, açıqlamalar verirlər. Sanki mərkəzləşmiş siyasət yoxdur. Bax bu, bizdə təəssüf doğurur. Eyni zamanda olan rusiyameyilli qüvvələrin də əlinə çox güclü bəhanə verir. Amerika bu bəhanəni verdikcə, Qərblə əməkdaşlığı önə çəkən insanların "dili qısalır".

❑ **Əli RAİS**

# “Mənim nəzərimdə iki əjdaha var”

## Elçin Şıxlı yeni planlarından və “Ayna Zerkalo”nun yeni həyatından danışdı

**“Dostlar, nəhayət, iki ildən sonra ilk yazımı yazdım və ”Ayna"nın bərpasında ilk addımı atdım. Yayın bu istisində hər hansı bir layihəyə başlamağın düzgün olmadığını anlasaq da, bu qərarı verdik. Çünki daha gözləməyə hövsələ qalmayıb..." İki gün öncə sosial şəbəkədəki statusunda bu anonsu verən “Ayna-Zerkalo” qəzetinin baş redaktoru Elçin Şıxlı ilə söhbətimiz də elə qəzetin hər zamankı redaksiyasında baş tutdu. Otaqlar boş, içəridə iş əhvalı olmasa da, binada “Ayna-Zerkalo” adına bir tək Elçin bəy vardı.**



*Elə söhbətimizə də bu yenilikdən və “Ayna- Zerkalo” adına yaxın gələcəkdəki planlarından başladıq.*

***- Sosial şəbəkədə elan etdiz ki, artıq “Ayna-Zerkalo” öz fəaliyyətini bərpa edir. Ən azı sayt statusunda. Necə oldu bu qərarın verilməsi?***

- Qərarın verilməsi deyəndə ki, bu saytın üzərində 8-9 aydır ki, iş edir. Bir var adam qəti qərar verir və başlayır işləməyə. Amma mənim qəti qərar verməyimin səbəbi də o oldu ki, bir sıra başqa işlər gördüm. 15-20 günə jurnalistika terminlərinin izahlı lüğəti çıxacaq. Arif Əliyev, Qulu Məhərrəmli də həmmüəlliflərdir. Sonra 4-5 ay ingilis-Azərbaycan dilində lüğətin üzərində də işlədim, amma ləzzət almadım. Bilirsiz, işləyirsən, axtarırsan, tapırsan, yazırsan, iş gedir. Amma özüm-özümə ancaq toxtaqlıq verirdim. Ömrün yarıdan çoxunu bu işlə məşğul olmuşuq. Bir şeydən ki, mən ləzzət almıram, müəyyən müddətdən sonra o, insanı sıxmağa başlayır. Bu işi düşünməyə başladım. Təbii ki, sayt yazdırmaq üçün qəti bilməlisən ki, nə istəyirsən və cibində də pul olmalıdır. Adam tutub ona qəti şəkildə deməк lazımdır ki, nə istəyirsən, sənə konkret nə lazımdır. Amma mən dəfələrlə “Ayna Zerkalo”nun saytını da işlədəndə görmüşəm ki, bizim İP mütəxəssislərimizin hamısı yaxşıdır, amma məsələ yaman uzanır. Burda mənim Akif adlı dostum var. Onunla danışdım, mənə kömək edəcəyini dedi. İndi gördüyünüz o dizayn Akifin dizaynıdır. Mənimlə xeyli mübahisələri oldu. Onun rəssam kimi görüşü bir başqadır. Amma şrift məsələsində fikir ayrılıqlarımız oldu, bir neçə dəfə dəyişdik.

***- Rauf Mirqədirovun azadlığa çıxması bu qərarın verilməsinə təsir etdimi?***

- Bəli, ən ciddi faktor bu idi. Rauf Mirqədirov özü də mənə dirəndi ki, “mənə otaq və kompüter ver. Mən iki ildir ki, kitab oxumaqdan birtəhər olmuşam, yazı yazmaq istəyirəm”. Onun da təsiri oldu. Bundan başqa, Arif Əliyev, Qulu Məhərrəmli, İbrahim Nəbioğlu ilə tez-tez görüşür, müzakirələr aparırıq. Bu kitab üzərində də iş gedirdi. İbrahim də həmişə Bakıya gələndə söhbətlər zamanı deyir ki, tənbəllik eləmə, başla, bir iş görək. Bunun da nəticəsində qəti qərara gəldim ki, artıq sayta başlayaq. Akifə də dedim ki, səni yordum, amma qurtaraq bu dizayn işini. Saytın işində bəzi pintiliklər var, amma iş prosesində bunlar da düzələcək.

***- Sayt daim yenilənirmi? Xəbərlər, müsahibələr, reportajlar...***

- Orda xəbər olmayacaq. Biz indi “Ayna” qəzetindən köhnə arxivi qoymuşuq. Hər müəllifin köhnə arxivini. İki il ərzində yazdığımızı. Hələlik mən bir yazımı qoydum. İbrahim Nəbioğlunun dünən yazısı hazır idi, amma İstanbulda baş vermiş terror hadisəsinə görə həmin yazı aktuallığını itirdi və İbrahim o yazısını saxlayıb, terrorla bağlı yazı yazdı. Hələlik belə gedir işlərimiz.



**“Mən özümdə o cəsarəti tapa bilmərəm ki, oturub belə bir mövzuda yazı yazım”**

### “Yeni “Ayna Zerkalo”da əsas dəyişiklik odur ki...”

***- Hazırda saytın heyətində nə qədər adam var?***

- 5 nəfər.

***- Heyəti genişləndirməyi düşünürsüzmü?***

- Hələ bununla başlayaq. Görək nə alınır. Burda maddi maraq yoxdur.

***- Yəni maliyyə yoxdur demək istəyirsiz...***

- Bəli, maliyyə yoxdur. Çünki maliyyə olsaydı, mən redaksiya qurardım. Zatən redaksiyanı da maliyyə problemi olduğuna görə dayandırdım. Amma burda dostlardır. Vəziyyət elə gətirib ki, bir çoxumuz “slep mod” rejimindəyik (yataq rejimi) və darıxırıq. Xeyli müzakirələr edir, özümüz deyib, özümüz eşidirik. Belə qərara gəldik ki, elə o “Ayna”da son il yarım-iki ildə necə müəllif yazıları yazırdıqsa, bunu sayt versiyasında edək. Sözün doğrusu, belə qərara gəlmişdik ki, prezentasiya edək. Saytdakı bütün pinti məqamları düzəldəndən sonra istəyirik ki, bunu edək. İstəyirik ki, özümüz üçün televiziya xətti də götürək.

***- Bunu saytın nəzdində edəcəksiz?***

- Bəli, “Ayna TV” yaradacağıq. İnternet televiziya. Orada müəyyən verilişlər hazırlamaq istəyirik. Çünki mənim nəzərimdə iki televiziya əjdahası var - biri Qulu Məhərrəmlidir, digəri isə İbrahim Nəbioğlu. Bunların orda olub da, bu bacarığından, potensialından istifadə etməmək olmaz.

***- Hər nə qədər internetdə yaratsanız belə, televiziya ciddi maliyyə, kadr tələb edir. Ən azı texniki məsələlər üçün. Bu, sizi qorxutmur?***

- Yox, o detallar həll olunub. Arifin avadanlığı var, məndə, Quluda var. Dünən görüşdüyüm dostlarımız oldu ki, onlar ilk bir neçə verilişi təmənnasız hazırlayacaqlarına söz verdilər. Bu, bizi çox sevindirdi. Dostlar mənim qara gözümə aşiq olmayıblar. Təbii ki, şəxsi münasibətlər var. Amma onlar da nəsə bir iş görmək istəyirlər və doğrudan da sevindilər.

***- TV-nin fəaliyyəti nə zamana planlaşdırılır?***

- O bir az qəlizdir. İşləmək lazımdır. Bir neçə veriliş hazırlayandan sonra təqdimatını edəcəyik.

***- Bütün bunların ardınca çap versiyası da gündəmə gələ bilər?***

- Sözün düzü, bu haqda danışmaq istəmirəm. Çünki prosesləri mərhələ-mərhələ aparmaq fikrindəyəm. Çünki mən hələ burda partizanlıq, xuliqanlıq elədim. Çünki özüm yazını yazdım, sayta yerləşdirdim və facebookda status yazdım. Məsələn, Arif Əliyev facebookda olmadığı üçün o statusdan xəbəri yox idi. Səhər mən ona xəbər verəndə dedi ki, niyə partizanlıq elədin? Axı biz danışmışdıq. Dedim ki, nəyisə gözləsəydik, heç nə etməyəcəkdik. Odur ki, oturun və yazın. Özümü də, hamını da fakt qarşısında qoydum ki, yazmaq lazımdır.

***- Yaxşı, bəs bu yeni “Ayna Zerkalo” fasilədən öncəkindən nə ilə fərqlənəcək? Xətti, mövqeyi baxımından soruşuram daha çox.***

- Dəyişiklik əsas odur ki, xəbər, araşdırma olmayacaq. Çünki onlaynda iri həcmli yazılar çətin gedir. Qərarımız odur ki, yazılar əsasən kiçik həcmli olsun - 3 min, 4 min işarə. Böyük yazılar çeviklik nöqteyi-nəzərdən adamı yorur. Böyük əksəriyyət saytı telefondan oxuyur indi. Orda da o böyük yazını oxumaq ağırdır. Televiziyanın özündə də lakonikliyə fikir verəcəyik. Televiziyanı bilən dostlarla danışdıq. Dedilər ki, veriliş ya 26, ya da 52 dəqiqə olmalıdır. Mən də dedim ki, 52 dəqiqə çoxdur. Ən uzun, ixtisarı mümkün olmayan halda 20-26 dəqiqə olmalıdır. Çünki oxucu baxanda ki, verilişin müddəti 1 saata yaxındır, ərinir ona baxmağa. Bundan başqa, adamların harda olmasından asılı olmayaraq, o verilişə həvəslə baxmaları üçün bəzi detallara diqqət etmək lazımdır. Bəzən düşünənlər olurdu ki, yayda yeni media layihəsinə başlamaq düzgün deyil. Amma söhbət internet layihədən gedirsə, burda fəslin önəmi yoxdur. İnsanlar harda olmalarından asılı olmayaraq, telefonla istədikləri yazını, verilişi izləyə bilirlər.

***- "Ayna Zerkalo" hər zaman reklamlarının çoxluğu ilə fərqlənib. Bu dəfə də reklam almaq üçün bəzi addımlar atacaqsız?***

- Olsa istəyərəm. Amma sonradan bəzi variantlara da açığıq. Türkiyənin “Sözçü” adlı bir qəzeti var. Çox xoşum gəlir, ürəyim gedir. Ordakı digər xəbərləri oxumuram, əsas köşə yazarlarını izləyirəm. Tirajına görə Türkiyənin ən öndə gedən qəzetidir. Orda müxalif fikirlərə geniş yer verilir. Amma müxalif o demək deyil ki, gəlin inqilab edək. Sadəcə, fikir azadlığı var, insan valeh olur. Bu nöqteyi-nəzərdən onlar da mənə təkan verdi. 3 il bundan öncəyə qədər bu qəzet 15-20 min tirajla çıxırdı, indi tirajı milyona yaxınlaşır. Hamısı da o köşələrin hesabına. Yazının başlığına fikir verin: “Heyvanlar niçin namaz kılmaz?” Sonra da yazıda izah edir ki, heyvanların günahı yoxdur, çünki onlar təmizdir. Mən özümdə o cəsarəti tapa bilmərəm ki, oturub belə bir mövzuda yazı yazım. Amma dostlarla da eyni fikrə gəlmişik ki, yazaq və orda fikir olsun, eyni fikrə gəlmək mümkün olsun.

❑ **Sevinc TELMANQIZI**


Əflatun Piriyev

# Biznesmenin qətlində günahlandırılan Rusiya vətəndaşlığı almaq istəyir

## Ərəstun Piriyev: "Qardaşımın qanının batırılmasına imkan verməyin"

**"Hümbət Məmmədov bilir ki, onun əməlinin ifşası şəxsən prezidentin nəzarəti altında həyata keçirilib. Onun qardaşım Əflatun Piriyevin qətli üçün tutduğu killer dəstəsinin üzvlərini 2011-ci ildə qısa bir zamanda Gürcüstandan tutulub gətirilməsi də bu işin prezidentin nəzarəti altında olmasına görə idi. Bu gün Hümbət Məmmədovun barəsindəki ədalətli cəzadan yayındırılması üçün addımlar atılır" - bu sözləri 2011-ci il iyulun 11-də "Avesta" konserninin binasında öldürülən Əflatun Piriyevin qardaşı Ərəstun Piriyev baş prokuror Zakir Qaralova, Ali Məhkəmənin sədri Ramiz Rzayevə ünvanladığı müraciətdə qeyd edir.**

**Ə.Piriyev bildirir ki, bir neçə gün əvvəl İnzibati-İqtisadi Məhkəmədə qanunsuz olaraq Hümbət Məmmədovun Rusiya vətəndaşı olması haqda saxta məlumatlara əsaslanan qərar çıxarılıb:** "Həmin qərar Hümbət Məmmədova cəzadan yayınmağa görə lazımdır. Bu adam qudası Salyanın keçmiş icra başçısı Tahir Kərimovun əlaqələrindən istifadə edir. Hümbət Məmmədovun qızı Tahir Kərimovun oğlundadır. Tahir Kərimov Salyan Rayon İcra Hakimiyyətinin başçısı təyin olunanda Hümbət Məmmədov ona 400 min dollar pul verimişdi. Tahir Kərimov ona vəd etmişdi ki, başçı təyin edildikdən sonra Salyanda abadlaşdırma işlərini onun şirkətinə podrata verəcək. Tahir Kərimov Daşkəsəndə başçı olanda Hümbət Məmmədova abadlaşdırma işlərini podrata vermişdi. Daşkəsən Rayon Polis İdarəsini, Şahmat Məktəbini tikmişdi, 20-yə yaxın binanın abadlaşdırmasını həyata keçirmişdi. Hümbət Məmmədov qardaşımın qətlini sifariş etdiyinə görə həbs edilən-dən sonra Tahir Kərimov vəzifəsini qorumaq üçün ondan kənar gəzməyə başladı. İndi Tahir Kərimov vəzifədə deyil, Hümbət Məmmədov da ondan əl çəkmir. Deyir ya pulu ver, ya da mənə kömək elə Rusiyaya ekstradisiya olunum. O da məcbur olub, ona kömək edir. Miqrasiya Xidmətinin tutduğu mövqe də anlaşılmazdır. Çünki qardaşımın Hümbət Məmmədovun sifarişi əsasında öldürülməsi üzrə işə Bakı Ağır Cinayətlər Məhkəməsində baxılarkən Hümbət Məmmədov Rusiya vətəndaşı olmasını ortaya atmışdı. Barəsində qətl sifariş etdiyinə görə ömürlük həbs cəzasının çıxarılacağını bilirdi. İstəyirdi ki, Rusiyaya ekstradisiya olunaraq pul qarşılığında azadlığa çıxsın. Lakin Bakı Ağır Cinayətlər Məhkəməsində məsələ araşdırıldı, Hümbət Məmmədovun Azərbaycan vətəndaşlığı təsdiqləndi. Aydın oldu ki, bu adamın Azərbaycan vətəndaşlığını təsdiq edən şəxsiyyət vəsiqəsi, xarici pasportu var və Rusiyaya ekstradisiya olunması üçün heç bir əsas yoxdur. Sonradan Bakı Apelyasiya Məhkəməsində də bu fakt təsdiq olundu".

**Ə.Piriyev bildirir ki, bundan sonra Hümbət Məmmədov fərqli taktika seçib və məhkəmələrdə də ona yardımçılar tapılıb:** "Mən 2015-ci ilin martında Hümbət Məmmədovun Ali Məhkəməyə barəsindəki hökmdən şikayət verdiyini təsadüfən eşitmişəm. Maraqlıdır ki, məhkəmədən onun şikayəti üzrə zərərçəkən tərəf olaraq bizə, mərhum qardaşımın ailəsinə heç bir məlumat vermirlər. Biz prosesə qatılanda isə formal məsələləri bəhanə edib prosesi qeyri-müəyyən vaxta qədər təxirə salırlar. Sonradan vaxt təyin edəndə isə yenə də bu haqda bizi məlumatlandırmırlar. Bütün bunlar qardaşımın qətlini sifariş vermiş Hümbət Məmmədovun Rusiya vətəndaşı olmasını gizli şəkildə təsdiqləsaid onu cəzadan yayındırmağa hesablanıb. Odur ki, baş prokuror Zakir Qaralovdan, Ali Məhkəmənin sədri Ramiz Rzayevdən xahiş edirəm ki, əli qardaşımın qanına batmış Hümbət Məmmədova qanunsuz olaraq, nələrinsə qarşılığında dəstək verən qurumlar, şəxslər barəsində araşdırmalara başlasınlar".

Yada salaq ki, 2011-ci il, iyulun 11-də, saat 13 radələrində paytaxtın Nərimanov rayonu ərazisində yerləşən "Azər-Ross" mənzil-tikinti kooperativində qurumun təsisçisi Əflatun Piriyevə və baş mühasib Əmiraslan Əhmədova odlu silahdan atəş açılır.

Hadisə yerinə ilk çatan Hümbət Məmmədov olur və şərikini maşına qoyaraq xəstəxanaya çatdırmaq üçün bütün şəhəri gəzdirir. Qanı axan Ə.Piriyev H.Məmmədovun maşınındaca keçinir. Sonradan heç nə olmamış kimi yas məclisində təşkilatçılıq edən H.Məmmədovu telefon danışıqları ələ verir. Onun sifarişini yerinə yetirmiş qatil Vüsal Qurbanov H.Məmmədovdan törətdiyi əmələ görə pulunu istəyib. Bu əsnada qatillə sifarişçi arasındakı telefon danışıqları hüquq-mühafizə orqanlarının əlinə keçir. İstintaqa cəlb edilən H.Məmmədov vəziyyətdən çıxmaq üçün min bir bəhanə düşünüb. Lakin daşdan keçən sübut - telefon danışıqlarının mətnləri ilə tanış olanda sifarişçi olduğunu boynuna alıb. Sonradan onun digər bir iyrənc cinayəti də üzə çıxıb. Məlum olub ki, H.Məmmədov əmisinin 16 yaşlı nəvəsi ilə intim münasibətdə olub və ondan şikayət edilib...

İstintaq araşdırması zamanı onun dələduzluq faktları da üzə çıxıb. Məlum olub ki, Hümbət Məmmədov şərikini tamah məqsədilə öldürtdürüb ki, ona olan borcunu verməsin. "Azər-Ross" MTK-nın baş ofisində törədilən dəhşətli qətl hadisəsində və dələduzluqda ittiham olunan Hümbət Məmmədov, Vüsal Qurbanov, Tofiq Bəkirov, Fərman Hacıyev, Sahil Şamilov və Şamil Şamilov məhkəmə qarşısına çıxarılmışdılar.

Bakı Ağır Cinayətlər Məhkəməsi Hümbət Məmmədov və Fərman Hacıyevi sifarişli qətlə görə ömürlük, digərlərini isə müxtəlif müddətlərə azadlıqdan məhrum edib. İş üzrə 24 nəfər zərərçəkənə 1 milyon 777 min manat ziyan vurulub. Belə ki, H.Məmmədov onlardan mənzil verəcəyi adı ilə qeyd olunan məbləği alıb və heç birinə mənzil verilməyib.

❑ E.HÜSEYNOV

# Bakıda tanınmış ekstrasensin meyiti tapıldı

**Bakıda tanınmış ekstrasensin meyiti tapılıb. Lent.az-ın əldə etdiyi məlumata görə, hadisə Yeni Günəşli qəsəbəsində baş verib. Bir sıra televiziya proqramlarında iştirak edən və tanınan ekstrasens Nəsirov Timur Ələkbər oğlunun meyitini dostu aşkarlayıb. İlkin araşdırmadan sonra məlum olub ki, 1987-ci il təvəllüdlü Timur Nəsirov mədə xəstəliyi nəticəsində vəfat edib.**

Bildirilir ki, ekstrasens xeyli vaxt imiş ki, mədəsindən şikayətlənirmiş.

Qeyd edək ki, bir müddət əvvəl T.Nəsirovun qətlə yetirilməsi ilə bağlı məlumat yayılmışdı. Bildirilirdi ki, o, bir nəfər tərəfindən Dağıstan Respublikasına dəvət olunub. Amma onun evə gətirilməsi ailədə narazılığa səbəb olub.

Daha doğrusu, ailə üzvləri cadugərin evə gətirilməyinə kəskin şəkildə etirazlarını bildiriblər və dava düşüb. Münaqişə zəminində Nəsirov qətlə yetirilib. Lakin sonradan bu məlumat təsdiqini tapmamışdı.

Qeyd edək ki, üç dəfə ailəli olmuş T.Nəsirov ANS-də yayımlanan "Adam içində" verilişinin daimi ekspertlərindən idi.




# Qatil qayının yanlışı



Samir SARI

**3-4 il əvvəl yaz aylarında 20 saylı məktəbin qarşısında avtomobilimi saxlayıb, sınaq imtahanında olan övladımı gözləyirdim. Göydən yağış elə tökürdü, sanasan, vedrədən tökülür. İmtahanın bitməsinə yarım saat qalmış bir də gördüm, maşının arxa qapılarına hücum var, qışqıra-qışqıra "aç, aç, islandıq" deyirlər. Dərhal fikirləşdim ki, nə əcəb bizim uşaq bu dəfə imtahandan tez çıxıb, həmişə axırıncı saniyədə çıxır axı.**

Geri döndüm ki, 3-4 abituriyent qızdır, yağışda islanırlar və maşının qapılarını açmağımı tələb edirlər. Ta nə olsun. İnsanlıq halıdır, uşaqlar suya düşmüş cücəyə dönsünlər, mən isti və quru yerdə oturummu. Qapıları açdım və hər tərəfdən bir qız tez-tələsik maşına minmək istəyəndə mənim gülümsər üzümü gördülər, çaşdılar, tez başlarını maşından çıxardılar. Biri dedi: "Bağışlayın, əmi, səhv saldım. Elə bildim, atamın maşınıdır".

Əlbəttə, dərhal bağışladım və bu karıxmaqlığı imtahanın həyəcanıyla və göydən tökülən leysan yağışla bağladım. Normalda heç kəs atasının maşınıyla başqasının maşınını səhv salmaz.

Əslində normalda həkim də pasiyentin sağlam ayağı ilə xəstə ayağını səhv salmamalıdır. Amma işlər anormal olanda belə şeylər olur. Həyatdır... Necə deyərlər, kişinin başına iş gələr.

Nəyisə, kimisə səhv salmaq hansı birimizin başına gəlməyib? Elə şey yoxdur, hamının başına gəlib.

Ancaq Ağdamdan gəlib Göyçayda yeznəsini öldürmək istəyən gəncin onu səhv salaraq 53 yaşlı günahsız adamı gecə yatdığı yerdə öldürməsi heç bir dəftər-kitaba sığan iş deyil.

Rəhmətliyin nəvəsi, bu adam sənin bacını qaçırıb, 3-4 ay saxlayıb, geri qaytarıb, indi sən də bundan elimizin adəti ilə qisas alırsan, barı yuxudan oyat və "ay əclaf, niyə belə iş gördün" deyə hesab sor, sonra yort də. Bəlkə adam öz müdafiəsi üçün bir söz deyəcək, bəlkə ayağına düşüb yalvaracaq, bəlkə normalda yeyilməsi mümkün olmayan məmulatlardan yediyini deyəcək və öz arvadını geri gətirəcəyini vəd edəcək? Bir aman ver, ifadəsini al, sonra qərar ver. Yoxsa gəl Hüseynbala Əliyevlə Heydər Əliyev küçəsini qarışdır, günahsız bir adamı da yatdığı yerdə öldür ki, qisasımı alajam, gedib kişi kimi namus üstə yatajam-zad.

İndi yaxşı oldumu? Günahsız adam getdi məzara, qardaş getdi türməyə, boşanmış bacı qaldı ortada, beş dəfə arvad alıb-boşamış yaramaz yeznə isə qonşu rayonlarda altıncı "nazlı yar" soraqlaşır.

Şair əbəs yerə demirdi ki, müsibət oluruq biz, səhv düşəndə yerimiz. Gerçəkdən də elədir. 53 yaşlı kişi axşam yerinə uzanıb yatanda nə biləydi ki, onun qatili cibində bıçaq bir qaranlıqda dayanıb gözləyir. Yenə bu haqq-hesab bir neçə səhvən vurulmuş şillə-şapalaqla bitsəydi, bunu komik olay kimi qəbul edərdik. Amma o boyda, o yaşda adam yanlışlığın qurbanı olaraq həyatını itirib.

Bunlar faciəvi yanlışlıqlardır. Yoxsa qəzetdə kiminsə haqqında artıq-əskik yazmış jurnalistin əvəzinə onun iş yoldaşının şillələnməsi elə də faciəvi hadisə deyil. Keçmişdə elə hadisələr çox olurdu. Bu günün özündə də demək olar ki, hər gün redaksiyaya zəng edən hiddətli oxucu yazı müəllifinin yerinə başqasını danlayır, ya da söyür. Bunlara dözmək olar. Nə də olsa, ortada ölüm, zülm yoxdur.

Amma səhvən günahsız adamı öldürmək sıradan bir şey deyil. Bu, ölkənin intellektual potensialını şübhə altına alan hadisədir. Belə çıxır ki, gənc nəsil küçə adını səhv salacaq qədər bisavaddır.

Qoy gələcək qatillər öz üzərlərində çalışsınlar, heç olmasa küçə, restoran, market adlarını lövhədən dürüst oxumağı, yadda saxlamağı bacarsınlar. Yoxsa dünyada reputasiyamıza xələl gətirirlər.

İndi gələk arvad alıb-boşamağı peşə halına gətirmiş Orxan adlı şəxsin iştəklərinə. Bir adam neçə dəfə evlənər? Bir dəfə. Ən uzağı iki dəfə. O da həyatı alınmayıb, birinci evliliyi zamanı yanlış yapıb deyə. Bu zalım balası artıq beş arvad alıb, ayrılıb. Bala, sən ərəb şeyxzadəsisənmi dörd arvadı birdən alasan? Bəlkə Bred Pittsən, Leonardo di Kapriosan, pərəstişkarların aman vermirlər, səni biri o birinin əlindən qapır?

Elə çıxmasın ki, müəllif istəyirmiş qatil qayın səhv salmasın və öz yaramaz yeznəsini öldürsün. Yox. Amma o, belə yeznəni eşşək sudan gəlincəyə qədər kötəkləsəydi, yeri vardı.

**Türkiyədə baş verən terror hadisələri bu ölkənin turizm sektoruna ciddi ziyan vurub. Bir neçə gün öncə İstanbul Atatürk Hava Limanında baş vermiş son terror aktı isə Azərbaycandan Türkiyəyə getmək istəyən bir çox turistin biletləri geri qaytarması, səfərini təxirə salması ilə nəticələnib. Ancaq ekspertlər bu vəziyyətin qısa müddət davam edəcəyini düşünür.**

# Azərbaycanlı turistlər Türkiyəyə biletlərini ləğv etdirir

## “FlyTravel” turizm şirkətinin direktoru: “Terror hadisəsinə görə qorxurlar”

Türkiyə ilə Rusiya arasında münasibətlərin normallaşması istiqamətində atılan addımlar və Kremlin Türkiyə istiqamətli turizm məhdudiyyətlərini aradan qaldırması haqqındakı qərarı türk turizmi üçün bir ümid olub. BMT-nin Ümumdünya Turizm Təşkilatı səyahət sektoruna çağırış edərək İstanbul Atatürk Hava Limanında baş vermiş terrora görə turistləri buranı tərk etməməyə çağırıb. BMT-nin Ümumdünya Turizm Təşkilatının Baş katibi Taleb Rifai açıqlamasında Türkiyənin dünyanın ən əhəmiyyətli istirahət yerlərindən biri olduğunu və bu mövqedə qalacağına da əmin olduğunu bildirib. Səyahət sektorunda təhlükəsizliyin əhəmiyyətli məsələ olduğunu deyən Rifai bir çox ölkələrdə turizm iqtisadiyyatın əsasını təşkil etdiyi üçün terror hücumlarının da məhz bu istiqamətə hədəfləndiyini bildirib. Ümumdünya Turizm Təşkilatının baş katibi bildirib ki, belə zamanlarda birlik nümayiş etdirməli və terror hücumlarına hədəf olan yerləri tərk etməməliyik.

**Azərbaycan Turizm Assosiasiyasının sədri Nahid Bağırov isə “Trend”ə açıqlamasında bu il ərzində Türkiyədə bir neçə terror hadisəsinin olmasına baxmayaraq, qardaş ölkənin bu gün də Azərbaycan turistləri üçün əsas prioritet istiqamət olduğunu bildirib:** “Çox sayda turistimiz yenə də Türkiyəyə gedir. Türkiyənin Antalya, Bodrum və digər dəniz sahili əraziləri turistlərimizin maraq göstərdiyi yerlərdir”.

**N.Bağırov ötən illərlə müqayisədə bu il Azərbaycandan Türkiyəyə, eləcə də digər xarici ölkələrə gedən turistlərin sayında azalma olduğunu deyib. Onun sözlərinə görə, terrorla bağlı da xaricə, eləcə də Türkiyəyə getməyən insanlar var:** “Bu gün əminliklə demək olmaz ki, hardasa terror olmayacaq. Terror dünyanın əksər ölkələrində baş verir. Bu hadisələr bütün Avropa ölkələrinin turizminə də təsir göstərib”.

N.Bağırov bildirib ki, bu il Gürcüstan, Avropa ölkələri də Azərbaycan turistlərinin səfər etdiyi yerlərdəndir.



**“FlyTravel” turizm şirkətinin direktoru Mamed Əliyev “Yeni Müsavat”a açıqlamasında Türkiyəyə səyahət etmək istəyən azərbaycanlıların bileti geri qaytardığını dedi:** “Çox adam gəlib Türkiyəyə səyahətini ləğv edib. Terror hadisəsinə görə qorxurlar. Düşünürəm ki, bu vəziyyət 3-4 gün, insanlar öyrəşənə qədər davam edəcək. Hələ ki dünən bunun təsirini gördük. Dünən səhər uçuşlar vardı ki, onların hamısı geri qaytarıldı. Türk Hava Yollarının özü dedi ki, kim istəyirsə, tam cərimısiz biletini qaytara, təxirə sala bilər. Düzdür, kütləvi şəkildə bu istiqamətə gedən şəxslərin hamısının vaz keçdiyini demək də olmaz. Amma bir qisim insanlar var ki, Türkiyədə planlaşdırdıqları istirahətlərini ləğv ediblər”.

**Turizm üzrə ekspert Elxan Vəliyev isə bu hadisənin Türkiyənin turizm qiymətlərinə təsir etməyəcəyini bildirdi:** “Bu hadisə yeni olduğuna görə kiçik səs-səda yarandı və müştərilər turpaketləri, biletləri qaytarmaq arzusuna düşdülər. Lakin bu o demək deyil ki, bu, turizm sahəsinə ciddi təsir edəcək. Təbii ki, müəyyən insanların fikirlərinə bu hadisə psixoloji olaraq təsir edə, ajiotaj yarada bilər. Amma hesab edirik ki, bu müvəqqətidir. Yəni sırf strateji məqsədli şəhərlər var. İstanbul və Ankaranı götürsək, digər müharibə bölgəsi adlandırdığımız sərhəd bölgələri var ki, orada problemlər yarana bilər. Antalya, Bodrum və digər bölgələrdə bu o qədər də təsiredici qüvvəyə malik deyil. Biz də Azərbaycan tərəfindən çıxış edərək söyləyə bilərik ki, maksimum bir həftə durğunluq yaranacaq. Sonradan təbii ki, yenidən Azərbaycandan Türkiyəyə turist axını davam edəcək. Elə müştərilər var ki, onlar terror hadisəsi baş verməmişə kimi öz səyahətini təxirə salmır. Təbii ki, bu insandan insana dəyişir. Yəni elə insan var ki, təşvişə düşür. Onsuz da İstanbula çox gedən olmur. İzmirə, Antalyaya və bir çox yerlərə uçuşlar bir başadır. Bu baxımdan da deyə bilərik ki, bu, müvəqqəti təsir bağışlayacaq”.

**E.Vəliyev turizm bölgələrindəki qiymətlərin çoxdan təyin olunduğunu dedi:** “Qiymətlər çoxdan təyin edilib, hətta elə hotellər var ki, onlarda yer tapmaq mümkün deyil. Ona görə də qiymətlərdə heç bir dəyişiklik olmayacaq. Hətta rusların gəlməməsi belə turizmə müəyyən qədər təsir etsə də, qiymətlər enmədi. İyul ayına qədər hotellər normal doldurulub və doldurulacaq da. İnsanların əksəriyyəti dolların qalxacağını düşünüb hətta ödənişləri əvvəlcədən ediblər”.

❑ **Günel MANAFLI**

# “Kredit oliqarxları”nın əmlakları hərracda su qiymətinə satıla bilər

## Ekspertin sözlərinə görə, obyektlərin əvvəlki qiymətlə alınması mümkün deyil

**Nazirlər Kabineti Azərbaycan Beynəlxalq Bankının qaytarılmayan milyardlarla manat kreditinin əvəzində girov qoyulmuş və “Aqrarkredit” QSC-yə verilmiş əmlakların satışı üzrə Müsabiqə Komissiyasının yaradılmasına dair qərar verib.**

Nazirlər Kabinetinin iyunun 26-da dərc edilmiş qərarına əsasən Beynəlxalq Bankın dövlətə məxsus səhmlərinin özəlləşdirilməyə hazırlanması ilə bağlı sağlamlaşdırma tədbirləri haqqında prezident fərmanına əsasən “Aqrarkredit” ASC-yə verilmiş əmlak satışa çıxarılır. Bu məqsədlə yaradılan müsabiqə komissiyasına maliyyə nazirinin müavini Azər Bayramov başçılıq edəcək. Komissiyanın tərkibinə İqtisadiyyat, Kənd Təsərrüfatı nazirliklərinin, Əmlak Məsələləri Dövlət Komitəsinin və “Aqrarkredit”in nümayəndələri daxildir. Bildirilir ki, Beynəlxalq Bankın kreditləri hesabına inşa edilən zavodlar və inşa edilən obyektlər də satışa çıxarılacaq. Ekspertlər isə bu obyektlərə alıcı tapılacağına ümid etmirlər.




**Ekspert Natiq Cəfərli məsələ ilə bağlı musavat.com-a açıqlamasında bildirib ki, keçiriləcək hərracın ciddi effekti olacağına inanmır:** “Qiymətlər zatən kifayət qədər şişirdilib. Öncədən onlar hətta girov kimi banklara qoyularkən qiymətləri kifayət qədər yüksək göstərilmişdi. Elə investorlar yoxdur ki, onu alsınlar. Xarici investorların cəlb olunması üçün də ölkədə ciddi şərait yoxdur. Bu addımın ciddi effekt verəcəyinə inanmıram. Düşünürəm ki, qanunvericilikdə nəzərə tutulmuş hal kimi bir neçə hərracdan sonra rəsmi qiymət xeyli dərəcədə aşağı salınacaq. Çünki başqa cür ona alıcı tapmaq mümkün deyil. Onların öncədən qiyməti şişirdilmişdi. İndiki iqtisadi durumda Azərbaycanda daxili investorun daşınmaz əmlaka yüksək qiymət verməsi inandırıcı görünmür”.

Ekspert Azər Mehtiyev isə musavat.com-a deyib ki, iqtisadi fəallığın azaldığı indiki şəraitdə həmin obyektlərə alıcı tapılacağı real deyil. O, obyektlərin qiymətinin məcburən aşağı salınacağını da istisna etmir. Ekspertin sözlərinə görə, obyektlərin əvvəlki qiymətlə alınması mümkün deyil.

Qeyd edək ki, Müsabiqə Komissiyası “Aqrarkredit” ASC-nin əsaslandırılmış təklifləri üzrə əmlakların satılması və ya kənar istifadəçilərə verilməsi barədə qərar qəbul edəcək. Hər bir əmlak üzrə müstəqil qiymətləndirmə də nəzərə alınmaqla, ilkin satış qiyməti müəyyən edəcək, əmlakların açıq hərraclarda satışının təşkil edilməsi üçün ixtisaslaşdırılmış təşkilatçıları seçəcək. Qərarda “Aqrarkredit” ASC-yə tapşırılır ki, əmlakların kənar istifadəçilərə verilməsi məqsədilə hazırlıq işləri aparsın, digər vəzifələri həll etsin.

Xatırladaq ki, Beynəlxalq Bankın aktivlərinin sağlamlaşdırılmasına dair fərmandan sonra bankın 5,6 milyard manatlıq problemli aktivləri “Aqrarkredit” ASC-yə verilib. Virtual.az.org-un xəbərinə görə, buraya Beynəlxalq Bankdan kredit götürən iş adamlarının həmin kreditlər hesabına inşa etdikləri müəssisələr, daşınmaz əmlak və digərləri də daxildir. Göründüyü kimi, “kredit oliqarxları”nın kütləvi həbsi bankdan götürülmüş kreditlərin geri qaytarılmasına əhəmiyyətli təsir göstərməyib və indi hökumət girov qoyulmuş əmlakın satışa çıxarılmasına dair qərar verib.

Lakin həmin əmlakın satışından əldə edilən gəlirlərin bankın verdiyi kreditlərlə adekvat olacağı ağlabatan deyil. Çünki “kredit oliqarxları”nın bankın vəsaitləri hesabına yaratdıqları müəssisələr, tikdirdikləri daşınmaz əmlak bir sıra səbəblərdən dəyərini itirib. Bura həm iqtisadi şərtlərin pisləşməsi, daşınmaz əmlakın ucuzlaşması, həm həmin müəssisələrin əksəriyyətinin fəaliyyətini dayandırması aiddir. Bir qayda olaraq işləməyən müəssisənin dəyəri işləyən və gəlir gətirən müəssisənin bazar dəyərindən aşağı olur.

Bu baxımdan, Beynəlxalq Bankın kreditləri hesabına inşa edilən zavodlar və inşa edilən obyektlər, məsələn, Bakıdakı “Globus Plaza”, Qaradağdakı Metanol Zavodu, Şüşə Qablar Zavodu, Zaqatala Fındıq Emalı Zavodu, Şəki İpək Kombinatı kimi hazırda fəaliyyətini dayandırmış müəssisələrin, habelə Hacı İbrahim Nehrəmlinin Xəzər adalarındakı tikintisi yarımçıq qalmış bir neçə yaşayış binasının yeni yaradılan komissiya tərəfindən satışının asan olmayacağı, əldə edilən vəsaitlərin həmin aktivlərə ayrılmış kreditləri bağlamağa kifayət etməyəcəyi aydındır.

❑ **RÖYA**





# Coker, tuz kozır, bìr də Belçìka...

## “Avro-2016"nın seçmə mərhələsində Belçikadan iki oyunda 4 xal qoparmış və qapısından top buraxmamış Uels bu axşam uğurunu davam etdirə biləcəkmi?

**Bu gecə Fransada “Avro-2016"nın ikinci yarımfinalçısının adı müəyyənləşəcək. Saat 23:00-da Lilin Pyer Morua adına stadionda Uels millisi Belçika ilə qarşılaşacaq.**

Lill Belçikanın bir addımlığında yerləşir və “qırmızı əjdahalar” bu stadionda tarixləri ərzində iki dəfə oynayıblar. Birinci dəfə belçikalılar Fransa ilə yoldaşlıq görüşündə 3:4 hesabı ilə məğlub olublar. 1989-cu ildə isə dünya çempionatının seçmə mərhələsində Lüksemburqla qarşılaşıblar və 5:0 hesabı ilə qalib gəliblər. Uels isə heç vaxt klub və ya milli komanda səviyyəsində Lildə oynamayıb.



### Uels millisi, Beyoncenin konserti...

Belçika mətbuatı oyun ərəfəsi Uels millisinin oyunçuları ilə bağlı maraqlı faktlar yazırlar. Məsələn, jurnalistlər iddia edir ki, Uels çempionatda bu cür nəticə göstərəcəyinə inanmayıb. Sübut? Kris Qanterin qardaşının toyu qrup mərhələsindən sonraya təyin edilib və Uels yoluna davam etsə, futbolçu şənlikdə iştirak edə bilməyəcək. Nila Teylor isə əvvəldən Beyoncenin konsertinə bilet alıbmış, amma komanda növbəti mərhələyə çıxdığı üçün futbolçu ulduz müğənninin biletini batırıb. Belçika mətbuat bu faktlarla Uelsin öz oyunçularının Fransada belə uğurlu nəticə gözləmədiyini qabardıb.

Uelsin 50 illik fasilədən sonra ilk dəfə Avropa çempionatının final mərhələsinə vəsiqə qazanması və 8 ən güclü komanda sırasına düşməsi sözsüz ki, gözlənilməz nəticədir. Heç kimin ağlına gəlməzdi ki, Britaniya krallığını təmsilçisi olan İngiltərə, Şimali İrlandiya və Uels arasında məhz sonuncular 1/4 finala yüksələcəklər."TheTelegraph" yazır ki, Uels millisi İngiltərənin 1/8 finalda İslandiyaya uduzmasını hoteldə əsl bayram ediblər.

Kris Qanter də komandasının Fransada hamını təəccübləndirdiklərinin fərqindədir: **“Fəxr edirik ki, çempionatda Britaniyanı təmsil edən yeganə ölkə bizik. Uels həmişə autsayder sayılıb, amma bu gün biz öz gücümüzü göstərərək 1/4 finala yüksəlmişik və dayanmaq fikrində də deyilik”.**





Xatırladaq ki, bu gecəki rəqiblər “Avro-2016"nın seçmə mərhələsində bir qrupda yer almışdılar. Brüsseldə keçirilən qrup oyununda hesab açılmamışdı, Uels isə öz meydanında Qaret Beylinin vurduğu yeganə topla qalib gəlmişdi.





Belçikadan iki oyunda 4 xal qoparmış və qapısından top buraxmamış Uels bu çempionatda stabil oyunu ilə seçilir. Belçika millisinin müdafiəçisi Tobi Alderbveyreld Uelslə seçmə mərhələdəki oyunlarında itirdikləri 4 xalın əvəzini çıxmaq istədiklərini deyib. Müdafiəçi bu gün Uelsin əks- hücumlarını daha təhlükəli olacağını bildirib.

Uels millisinin əsas cokeri “Real”da əla mövsüm keçirən Qaret Beyldir. Beyl istənilən milli komandada fərqlənə biləcək oyun keyfiyyətlərinə sahibdir, amma Uels üçün o əsl ilahi tapıntıdır. Uelsin vurduğu 6 topun 3-nün müəllifi olan Beyl hazırda Avropanın ən yaxşı cinah yarımmüdafiəçisi, driblinq və sərrast cərimə zərbələri ustasıdır. Beyl Uels millisini təkbaşına Avropa çempionatına gətirib desək, yanılmarıq. Komandanın seçmə mərhələdə vurduğu 11 topdan 7-si onun payına düşür. Amma bu son deyil. Onun 3 məhsuldar ötürməsi də var! Komandasının Fransadakı uğurunun yarıdan çoxu da onun zəhmətinin sayəsində olub: 3 qol, bir məhsuldar ötürmə... Son 5 ildə Uelsin ən yaxşı futbolçusu adına da Beyldən başqa şərik olan yoxdur.

Əgər Beyl cokerdirsə, Uelsin “tuz kozırı” Aron Remzidir. “Arsenal”ın 25 yaşlı oyunçusu komandanın bütün təhlükəli hücumlarında iştirak edir. O, Beyl kimi cəld deyil, amma nə hücumda, nə texnikada komanda yoldaşından geri qalmır. Uelsi bu iki oyunçunun komandası adlandırmaq da olar, amma bu, məşqçi Kris Koulmen ədalətsizlik olar. O, doğrudan da yaxşı komanda yaratmağa nail olub. Beyl və Remzini dedik, amma Ledli, Allen, Uilyams da var axı...



Komandanın baş məşqçisi Kris Koulmen “Beyl və Remzi meydanda bir neçə saniyəyə oyunun taleyinə həll edə biləcək futbolçulardır” deyir.

### Belçikanın qalib gələcəyinə inananlar daha çoxdur

Belçika da ev sahibliyi etdiyi “Avro-2000" ildən bəri ilk dəfədir ki, Avropa çempionatına vəsiqə qazana bilib. Belçikalılar ən son uğuru 1980-ci il Avropa çempionatında qazanıblar. Həmin il Belçika finalda Almaniyaya 2:1 uduzub.

Belçika millisinin baş məşqçisi Mark Vilmotsun bu gecəki qarşılaşmada yeni “velosiped yaradacağı” gözlənilmir. Belçikanın oyun taktikası dəyişməzdir: topa nəzarət, güclü pressinq, hücum xətlərindəki oyunçuların tez-tez yerdəyişmələri... Bu komandada uğurlu oyunçu dəyişikliyi də qeyd edilməlidir. Karrasko, Boçuai, Oriqi, Dembele və Benteke kimi futbolçular oyunun son dəqiqələrində meydana girməklə bir qığılcım yaratmağa qadirdilər. Belçikanın “Avro-2016"da 4-3-3 sxemi komandaya uğur gətirir və çətin ki, bu oyunda da hansısa ciddi dəyişiklik olsun. Belçika İtaliya ilə qrup mərhələsindəki ilk oyunda məğlubiyyətdən sonra(0:2) qamətinin düzəldə bildi, komanda oyununda nizam-intizam bərpa olundu.

Mark Vilmots deyib ki, Belçika millisinin zədələnmiş yarımmüdafiəçisi Eden Azar Uelslə bugünkü oyunda iştirak edəcək. Komandanın yarımmüdafiəçisi Aksel Vitsel 1/4 final ərəfəsi yaxşı əhval-ruhiyyədə olduqlarını deyib: **“Bizim Uelslə son oyunlarda yaxşı xatirələrimiz qalmayıb. Amma bizi yeni oyun gözləyir. Uelsi qiymətləndirmək lazımdır. Macarıstan üzərində inamlı qələbəmiz göstərdi ki biz doğru yoldayıq”.**



Proqnozlar və rəylər bugünkü oyunla bağlı haçalanır, amma Vilmotsun komandasının qalibiyyətinə üstünlük verənlər daha çoxdur. Uels də olduğu kimi Belçika millisində də İngiltərə liqasında oynayan oyunçular var. Onlardan biri də Belçikanın əsas qapıçısı Tibo Kurtuadır ki, “Çelsi”nin qolkiperi Peter Çexi belə indi ehtiyat skamyada oturmağa məcbur edib. Tibo Kurtuadan başqa Tobi Alderveyreld (“Tottenhem”), Romelu Lukaku (“Everton”), Eden Azar (“Çelsi”) kimi oyunçuları göstərmək olar.

“Uels - Belçika matçı oyununu Damir Skominanın başçılıq edəcəyi sloveniyalı hakimlər briqadası idarə edəcək.

❑ **Nazim SABİROĞLU**

YENİ MÜSAVAT
N 143 (6464) 1 iyul 2016




**Cümə söhbətləri**

**Bismilləhir-Rahmənir-Rahim! Mübarək Ramazan sonuncu cümə günü - Qüds günüdür. Qüds günü - müsəlmanların izzəti günüdür. Qüds günü bir gündür ki, bu gündə müsəlmanlar bir toplum olaraq, cəm şəklində öz sözlərini dünyaya çatdırırlar. Qüds günü müsəlmanların izzət günüdür. Ona görə də izzətlə bağlı mövzuya aydınlıq gətirək.**

# Qüds günü - izzət günüdür



Hacı İlqar İBRAHİMOĞLU, ibrahimoglu@gmail.com
İlahiyyatçı-filosof, İçərişəhər Cümə məscidinin imam-camaatı

İmam Sadiqdən (ə) nəql edirlər: “İzzət odur ki, hər vaxt ki, haqla üzbəüz gəlsən, gərək haqqın müqabilində təvazö edəsən”.

Bu, çox böyük, fövqəladə dərəcədə fundamental dəyərdir. İzzət o deyil ki, adamın pulu çox ola, malı çox ola, adamlar içində süni tərifərlə yaşaya. Mübarək İslam məntiqində haqq müqabilində təvazö edən zaman insanın izzəti var.

Həzrət Əli (ə) buyurur: “Hər kim izzəti Allahdan qeyrisində axtara, o "izzət" onu məhv edər".

Loğmandan belə nəql edirlər: “Əgər istəyirsən ki, dünya izzətini ələ gətirəsən, onda gərək insanların əllərində olan şeylərdən gözünü çəkəsən”. Yəni, insan olmaq üçün nəfsini qorumalısan, başqalarında olan şeylərdən gözünü çəkməlisən.

### Qüds - yəni Qarabağ! Qarabağ - yəni Qüds!

Qüds günü təkcə Fələstinlə bağlı bir gün deyil. Qüds günü - müasir dünyada müsəlmanlara üz tutularaq, çalınan bir təbildir! Bu təbil deyir: **“Ey, müsəlman! Sən bu məğlubiyyətlərlə hara gedirsən? Bəs bunun sonu nə olacaq? Axı bu gün, bu zülm Fələstində varsa, sabah hər yerdə ola bilər...”**

Necə ki, gözümüzün qabağında artıq baş verməkdədir - Qarabağ, Əfqanıstan, İraq... Qarabağımızda gör nələr baş verir!?

İstəyirik biləк Qüds nədir, gərək erməni əsirliyində əziyyət çəkən əsirlərimizi, onların nalələrini, itirilmiş torpaqlarımızı yada salaq. Əgər anlamaq istəyiriksə ki, necə oldu Qüds meydana gəldi, gərək gözümüzün qabağında xəyanət edilən torpaqlarımızı, bu torpaqlarla edilən alverləri xatırlayaq. Elə bütün dünya səviyyəsində müsəlman torpaqları bu durumdadır. Ona görə də, bizim dəqiq bir şüarımız var: Qüds - yəni Qarabağ! Qarabağ - yəni Qüds!

### Ayılma günü

Qüds günü - ayılma günüdür. Qüds günü - müsəlmanların özlərinə qayıtma günüdür. Qüds günü - öz mənliyinə, öz mənəviyyatına, öz milli ideologiyalarına, öz dininə, öz şəxsiyyətinə, öz vücudi durumuna qayıtma günüdür. Ona görə də, bu gün mücərrəd nələrdənsə danışmaqdansa, istər Fələstində, istər Qarabağda, istər daha geniş olaraq ümumən müsəlmanların problemlərinin həlli müstəvisində söhbət açmaq gərəklidir. Müsəlmanlar ayılmalıdırlar. Azad olmalıdırlar. Həqiqi, xalqına bağlı olan ziyalılar yetişməlidir.

Qüds günü - Qarabağ günüdür, oyanış günüdür, özümüzə qayıdış günüdür, cılızlıqdan, kiçiklikdən, bölünməkdən, şəxsiyyətsizlikdən, yaltaqlıqdan xilas olma günüdür, insan olma günüdür, kamil insan yetişmə günüdür.

Bu günün mübarək Ramazan ayının sonuncu cümə gününə salınması da təsadüfi deyildir. Yəni, ey Allah qonağı, bu qonaqlığı nəinki bir tək mənəvi oyanışla, həm də ictimai-siyasi oyanışla tərk etməlisən!

### Bu itkilərin səbəbi nədir?

Qarabağı niyə itirdik? Zəngəzuru niyə itirdik? Vətəni niyə itirdik?

Hərə bir səbəb göstərəcək. Kimisi siyasi amillərlə bağlayacaq, kimisi geopolitik oyunların nəticəsi kimi dəyərləndirəcək, bir başqası başqa amillər arayacaq. Amma bu itkinin gerçək bir səbəbi var. Şuşadan qabaq biz bir başqa şeyləri artıq itirmişdik.

Biz niyə bu gün əziz Şuşanı azad edə bilmirik? Çünki hələ də ondan öncə itirdiyimizi qaytarmamışıq. Hətta deyərdik ki, itirə-itirə də gedirik. Deməli, əslində bu itkilər davam etdikcə, Şuşamızın itkisini daha da artırırıq.

Biz Şuşanı, Qarabağı ona görə itirdik ki, özümüzü itirmişik. Bu torpaqları quru coğrafi anlayışdan müqəddəs Vətən anlayışına qədər ucaldan öz vücudi kimliyimizi itirmişik. Biz Şuşadakı, Qarabağdakı, İrəvandakı məscidləri ilk olaraq itirməmişdən, ondan öncə onun içindəki gerçək varlığımızı itirmişik. Biz əvvəl bu məkanlarda yaşayan insanımızın varlığını itirmişik.

### İbadət günü

Bəli, mübarək Ramazan ayının axırıncı cümə günü Beynəlxalq Qüds Günü kimi qeyd edilir. Mübarək Ramazan ayı ilə Beynəlxalq Qüds günü arasında birbaşa əlaqə vardır. Çox ciddi vücudi əlaqələri vardır. Əlaqə bundan ibarətdir ki, mübarək Ramazan ayı mahiyyətcə bizlərdə təqvalılığı artırmaq üçündür. Qüds günü də məhz təqvalıların günüdür. Mübarək Ramazan ayının ana məqsədi, ana hədəfi - bizdən bəndə yetişdirməkdir. Qüds günü - bəndələrin günüdür. Qüds günü - Allaha bəndəlik etmək istəyənlərin günüdür.

Ən əsas məsələ budur ki, biz Qüds gününü tarixi bir gün kimi yox, coğrafi, geopolitik bir gün kimi yox, elə sırf ibadi, İslami bir gün kimi dərk edək. Və necə biz həcc əməllərini başa vurduqda həccin yekunlarında zalımlara “yox” deyərək, əslində öz tövhidpərəstliyimizi bildiririk, mübarək Ramazan ayının da mənəvi səfərinin yekununda Qədr gecələrindən çıxmış insanın əslində bir “Lə iləhə illəllah!” hayqırtısıdır Qüds günü.

Əslində Qüds günü - dünyada bütün İslam torpaqlarının işğalına “yox!” demə günüdür. Bu anlamda Qüds günü həm də Qarabağ günüdür. Qüds günü - Şuşa günüdür, Ağdam günüdür. Bu gün təkcə Fələstin günü deyil, həm də Qarabağ, İraq, Əfqanıstan, Pakistan, Kəşmir, Myanma günüdür. Qüds günü - Suriya, İraq, Yəmən, Bəhreyndir. Ümumən İslam torpaqlarının hər bir yerində ki, zülm edilir, hər yerində ki, müsəlmanların haqlarına təcavüz edilir, ümumən insanlıq adına təcavüz edilir, - Qüds günü həm də ora bağlıdır. Bu mənada bu günün anlamı yalnız tarixi və coğrafi anlamla yekunlaşmır.

Ən əsas məsələ budur ki, biz bu günü tarixi bir gün kim yox, coğrafi, geopolitik bir gün kimi yox, Qüds gününü elə sırf ibadi, İslami bir gün kimi dərk edək.

### Zülmə məruz qalmışların günü

**Qüds günü** - bütün zülmə məruz qalmış insanların günüdür. Allah dərgahında bir ay oruc tutmuş və mənəvi yüksəlişə çatmış insanın sözün həqiqi mənasında, İlahi vətəndaşlıq günüdür Qüds günü! Qüds günü - böyük ariflərdən biri buyurmuşkən - İslam günüdür. İslam anlayışının içində nə varsa, Qüdsdə də var. Qüds günü - bütləri sındıranların günüdür. İstər maddi, istər qeyri-maddi bütlərini sındıranların günüdür Qüds günü.

Qüds gününün məhz Fələstinlə bağlı seçilməsi də təsadüfi deyil. Qüds müsibəti, Nəqbə faciəsi - ümmətin düşdüyü acınacaqlı durumu və İslam düşmənlərinin ən konsentrasiyalı təcavüzünü hər şeydən yaxşı illüstrasiya edir. Məhz Fələstin mövzusunda geopolitik anlamda dost-düşmən çox dəqiq bilinir və ümmətin bütün zəif nöqtələri təzahür tapır. Buraya hər şeydən çox, daxili düşmən aiddir - sapı özümüzdən olan baltalar. İndilərdə bəlli olur ki, təkfirçi rejimlər sionistlərin Fələstinə, Livana, digər müsəlman ərazilərinə təcavüz kampaniyalarına nə böyüklükdə maliyyə vəsaitləri ayırıblar.

Dünyanın hər yerində, harada olmaqlarından asılı olmayaraq, bütün müsəlmanlar - “Lə iləhə illəllah” əhli, Rəsulullah (s) aşiqi, qiblə tanıyan, əhya saxlayan insanlar bu gün Qüds günü keçirir. İstər Fransada, istər Ərəbistanda, istər Türkiyədə, istər İtaliyada - harada müsəlman var, ona çətin də olsa, asan da olsa, onu tərifləsələr də, acılasalar da - bu gün Qüds gününü keçirir. Zülmə məruz qalmışlarla həmrəylik gününü keçirir.

### Üsulid-din günü

Bu mənada, biz bu gün İslam günündəyik. Bu gün - İslamın həm nəzəri, həm əməli tərəfinin yaşadılması günüdür. İslam günü olduğundan, Qüds günü - Tövhid günüdür, təkallahlığa etiqad günüdür. Bütpərəstlikdən, digər məxluqlara tapınmaqdan qurtulma günüdür.

Hər yerə bağlantıdan qırılıb, “Lə iləhə illəllah”ı iqrar etmək günüdür. Maddi və qeyri-maddi bütlərə “yox!” deyib, bu bütləri dağıdıb, tək olan Allaha bəndə olmaq günüdür.

**Qüds günü** - nübuvvət günüdür. Həzrət Muhəmmədin (s) Allah Təalanın sonuncu rəsulu olmasına etiqad bəsləmək günüdür.

**Qüds günü** - imamət günüdür. Peyğəmbərimizin (s) 12 İlahi canişininin yolgöstərən olaraq qəbul edilməsi günüdür.

**Qüds günü** - ədl günüdür. İlahi ədalətə etiqad bəsləmək günüdür. Hər bir xeyrin Allahdan olmasına, hər bir şərin insanın mənfi əməlinin nəticəsi olmasına etiqad bəsləmək günüdür.

**Qüds günü** - məad günüdür. İnsanın Qiyamət günündə öz əməllərinə görə sorğu-suala çəkiləcəyinə, əməllərinin əvəzi olaraq, müafiq surətdə savab və ya cəza almasına etiqad etmək günüdür.

### Füruid-din günü

**Qüds günü** - namaz günüdür. Çünki o namazın ki, Qüds günü rəngi yoxdur - həmin namaz öz yerində olmayacaq. Ən azı qəlbində hər bir insan bu günlə həmahəngliyi yaşatmalıdır.

**Qüds günü** - oruc günüdür. Əslində oruc nədir? Pəhrizə öyrədən bir ayindir. Edilməməlilərdən çəkinməni, edilməliləri yerinə yetirməyi təlqin edən, qəlbi tərbiyə edən bir ayindir. Qüds günü də insanların nələri etmək və nələrdən çəkinməklə bağlı daha geniş bəyan edildiyi bir gündür.

**Qüds günü** - zəkat günüdür, xüms günüdür. Qəlbin zəkatı, həmdərdliyin zəkatı günü. İnsaniyyətin zəkatı günüdür.

**Qüds günü** - cihaddır. Laqeydlikdən qurtulma cihadı. Bütləri sındırmaq cihadı. Mənəvi buxovlardan azad olma cihadı.

**Qüds günü** - həccdir. Qüds günü - təvəlla-təbərradır. Mövqeyini izhar etmək günüdür. Həccə gedənlər həcc işlərini yerinə yetirdikdən sonra “bəraəti-müşrikin” əməlini - dostları, düşmənləri bəlli etmək və bunu əqlani olaraq, şüurlu olaraq etmək əməlini yerinə yetirməsə, həcləri o qədər də keyfiyyətli olmaz. Yüksək standartlara cavab verməz. Və imanlı insanlar böyük şövq və intizarla həcdə həmin əməlin yerinə yetirilməsini gözləyirlər. Allah Təalanın dini ilə beyətlərini təzələmək, zəlilliyə “yox!” demək fürsətini gözləyirlər. Məzlumların yanında olmaq fürsətini gözləyirlər. Hacılar həcdə təvaf edirlər, səy əməlini yerinə yetirirlər, digər vacibi ayinləri icra edirlər. Amma “bəraəti-müşrikin” əməli bunlara bir növ ruh verir, bu ayinlərdə olan simvolluğu dərin məna ilə təsbit edir. Yerinə yetirilən əməllərin mahiyyətinə, fəlsəfəsinə varmağa imkan yaradır. Şüurla, agahlıqla edilməsinə rövnəq verir. Bu mənada görürük ki, imanlı insan həcc əməllərini tam kamilləşdirmək üçün “bəraəti-müşrikin” əməlini intizarla gözləyir və böyük şövqlə yerinə yetirir.

Mübarək Ramazan ayı da belədir. Ay boyu insan günün müəyyən hissəsini ac qalır, susuz qalır, digər işlərdən çəkinir. Bunlar insanda bir mənəvi hal yaradır. Bütün yaşayış vəziyyətində tək maddi deyil, qeyri-maddi məsələlərdə edilməliləri edir və edilməməliləri etmir. Və bu ayın sonuncu cüməsində “Qüds günü”nü qeyd edir. Bu, mübarək İlahi ziyafətin xüsusi rəngidir, çalarıdır. Xüsusən də, əhyalardan sonra olması da bu ruhi yüksəlişi bir növ yeni tərkiblə zənginləşdirir.

**Qüds günü** - əmr-be-məruf və nəhy-əz-münkər günüdür. Yaxşılıqlara dəvətin və pisliklərdən çəkindirmənin günüdür. Əslində **Qüds günü** - əmr-be-məruf və nəhy-əz-münkərin zirvəsidir. Ən bariz formalarındandır.

Qarabağ ağrısı olan bizlər üçün bu mövzular xüsusi aktuallıq kəsb edir. Allaha dua edirik ki, ümmətə ayıqlıq, bəsirət, dostu-düşməni tanıma, daxili islahat gücü, imamət nurunu dərk etmə tofiqatını nəsib etsin.

**Allahım! Bizləri Sənin yolunda sabitqədəm olanlardan qərar ver!**

**Allahım! Qarabağın və Qüdsün, bütün işğal olmuş torpaqların tezliklə azad olunmasını nəsib et!**

**Allahım! 12-ci İmam Mehdi Sahibəz-Zamanın (ə.f) tezliklə zühur etməsini inayət et! Amin!**

YENİ MÜSAVAT
N 143 (6464) 1 iyul 2016

# Binəqədidəki yanğınla bağlı məhkəmədən yeni məlumatlar

## Zərərçəkmişlər həbs olunanlardan şikayətçi deyil

**Bakı Ağır Cinayətlər Məhkəməsində 2015-ci il mayın 19-da Binəqədidə çoxmərtəbəli binada baş verən yanğına səbəb olmaqda təqsirli bilinən şəxslərin cinayət işi üzrə məhkəmə prosesi davam etdirilib.**

Musavat.com-un məhkəmə prosesində iştirak edən müxbiri xəbər verir ki, hakim Əfqan Hacıyevin sədrliyi ilə hazırlıq iclası davam etdirilib. Hazırlıq iclasının davamında təqsirləndirilən şəxslər vəkillərinin vəsatətlərinə münasibət bildirib, dövlət ittihamçısı çıxış edib. Xatırladaq ki, sonuncu prosesdə təqsirləndirilən şəxslərin vəkilləri hüquqlarını müdafiə etdikləri şəxslər barəsindəki cinayət işlərinin təqibinə xitam verilməsi və onların ev dustaqlığına buraxılması ilə bağlı vəsatətlər qaldırıb.

**Dünən keçirilən məhkəmə prosesində təqsirləndirilən şəxslər vəkillərin vəsatətlərinə münasibət bildiriblər. Təqsirləndirilənlərdən "Global Construction" MMC-nin İdarə Heyətinin sədr müavini Ələkbər Əsgərov çıxışında vəsatətləri müdafiə etdiyini bildirib:** "İlk növbədə dünyasını dəyişənlərin yaxınlarına başsağlığı verirəm. 13 aydır həbsdəyik. Ancaq bizdən heç nə soruşmurlar. Niyə həbs edildiyimizi bilmirik. İstintaqın bu şəkildə aparılması mənəvi olaraq bizi hər gün öldürüb-dirildir. Vəsatətlərin təmin edilməsini xahiş edirik".

**"QlobalStone" MMC-nin baş direktorunun müavini Uğur Bəşirov isə çıxışında istintaq zamanı vəkili ilə görüşdürülməməsindən narazılığını bildirib:** "İstintaq zamanı iş materialları ilə tanış olmamışam. Vəkilimlə görüşümə icazə də verilməyib. İfadə verərkən belə vəkilimlə görüşə icazə verilmədi. İstintaq materiallarında mənim həbs edilən şəxslərlə 2010-cu ildən əlbir olduğum, birlikdə iş gördüyümüz qeyd edilib. Ancaq mən 2010-cu ildə heç Bakıda olmamışam. Bu da ən azından onu sübut edir ki, bu ittiham əsassızdır".

**Hazırda təqsirləndirilənlərdən, ev dustaqlığında olan Səhiyyə Nazirliyinin Gigiyena və Epidemiologiya Mərkəzinin baş direktoru Akif Əlibəyov çıxışında ona**



**qarşı irəli sürülən ittihamların əsassız olduğunu və vəsatətlərin təmin edilməsini istəyib:** "Mənə qarşı olan ittihamda qeyd edilib ki, mən həkim olaraq texnoloqun savadını yoxlamamışam. Axı mən necə bunu edə bilərdim? Bu çox məntiqsiz ittihamdır və əsassızdır".

**Təqsirləndirilən "Dərnəgül Boru Zavodu" Qapalı Səhmdar Cəmiyyətinin sınaq laboratoriyasının müdiri, hazırda ev dustaqlığında olan Ağacavad Məmmədovun vəkili bildirib ki, müəvəkkilinin vəziyyəti ağırdır:** "Xahiş edirik ki, səhhəti normallaşana qədər iş ayrılsın və icraatı dayandırılsın. Həkim rəyi də var ki, onun məhkəməyə gəlməsi səhhətinə ciddi problem yaradır". Zərərçəkmişlər Feyzullah Bağırov, Tofiq Mustafayev, İdris Xəlilov, Səbinə Manafova, Heyvagül Əfəndiyeva vəkillərin vəsatətlərini müdafiə edərək təmin edilməsini istəyiblər. Sonda çıxış edən dövlət ittihamçısı qaldırılan vəsatətlərdən həbs-qətimkan tədbirinin dəyişdirilməsi üçün səbəb olmadığını bildirib. Prokuror yol verilməz sübutların cinayət işindən xaric edilməsi ilə bağlı vəsatətlərin baxılmamış saxlanılmasını istəyib. O, işin məhkəmə baxışına verilməsini istəyib. Müşavirədən qayıdan məhkəmə heyəti qaldırılan vəsatətlərin təmin olunmadığını və işin məhkəmə baxışına göndərildiyini elan edib.

Qeyd edək ki, qulluq mənafeləri tələb etdiyi halda səlahiyyətlərindən istifadə etməmələri nəticəsində vətəndaşların və dövlətin hüquqlarına və qanunla qorunan mənafelərinə mühüm zərər vurmalarında kifayət qədər əsaslar olduğundan binaların üzlənməsində istifadə olunan "poliuretan" məmulatını istehsal edən "QlobalStone" MMC-nin baş direktorun müavini Bəşirov Uğur Firuz oğlu, "Global Construction" MMC-nin təsisçisi Mahmudov Miryusif Mircəfər oğlu, həmin cəmiyyətin idarə heyətinin sədr müavini Əsgərov Ələkbər İldırım oğlu, Binəqədi Rayon İcra Hakimiyyəti başçısının sabiq birinci müavini Novruzov Qəzənfər Məhərrəm oğlu, 2012-2013-cü illərdə Binəqədi rayon Mənzil Kommunal Təsərrüfat Birliyinin rəisi vəzifəsində işləmiş rayon icra hakimiyyətinin təsərrüfat şöbəsinin müdiri Rəcəbov Ədalət Şəmsəddin oğlu, Binəqədi rayonu, 72 saylı Mənzil Kommunal İstismar Sahəsinin rəisi Orucov Nizami Qara oğlu Cinayət Məcəlləsinin 225.2 (yanğın təhlükəsizliyi qaydalarını pozma ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə və digər ağır nəticələrə səbəb olduqda) və 308.2-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə ağır nəticələrə səbəb olduqda) maddələri ilə, "poliuretan" məmulatlarının sınaq yoxlamalarını keçirən "Dərnəgül Boru Zavodu" Qapalı Səhmdar Cəmiyyətinin sınaq laboratoriyasının müdiri Məmmədov Ağacavad Hacı oğlu Cinayət Məcəlləsinin 308.2 və 313-cü (vəzifə saxtakarlığı) maddələri ilə, "poliuretan" məmulatlarına dair texniki şərtləri razılaşdırmış Səhiyyə Nazirliyinin Gigiyena və Epidemiologiya Mərkəzinin baş direktoru Əlibəyov Akif Muradəli oğlu Cinayət Məcəlləsinin 308.2-ci maddəsi ilə təqsirləndirilən şəxs qismində cəlb olunaraq, onlara həmin maddələrdə nəzərdə tutulan ittihamlar elan edilib.

**Xatırladaq ki, rəsmi məlumata görə, yanğın nəticəsində 15 nəfər ölüb, 50 nəfər xəsarət alıb.**

❑ **İlkin MURADOV**



# Göyçayda şok qətl: səhv saldığı adama 16 bıçaq vurdu

**Göyçay rayonunda iş adamını 16 bıçaq xəsarəti ilə amansızlıqla qətlə yetirən Ağdam rayonunun Yeni İmamqulubəyli kənd sakini, 1991-ci il təvəllüdlü Süleymanov Sərxan Allahverdi oğlu isti izlərlə tutulub.**

APA-nın yerli bürosunun xəbərinə görə, yaşadığı evdə yatdığı vəziyyətdə öldürülən iş adamının qətlinin tamah məqsədilə törədilmədiyi məlum olub. S. Süleymanovun ilkin dindirilməsi zamanı bəlli olub ki, Cəbrayıl Kərimov təsadüf nəticəsində öldürülüb. Qətli törədən şəxsin bacısı 1982-ci il təvəllüdlü Süleymanova Nargilə Allahverdi qızı aprel ayının əvvəllərində evlənmək məqsədilə Göyçay şəhərinin Hüseynbala Əliyev 24 ünvanında yaşayan Quliyev Orxan Əsəd oğlu tərəfindən qaçırılıb.

Bundan sonra Ağdam rayonu ərazisində Orxanla Sərxan arasında münaqişə baş verib. Dünən isə qaçırılan bacısının evlərinə qaytarılmasından qəzəblənən Sərxan Süleymanov qisas məqsədilə Göyçaya gəlib. Lakin, o şəhərin Heydər Əliyev prospekti - 24 ünvanı ilə Hüseynbala Əliyev küçəsi - 24 ünvanlarını səhv salaraq gizli yola Cəbrayıl Kərimovun mənzilinə daxil olub və onu qətlə yetirib.

Polis əməkdaşları tərəfindən keçirilən əməliyyat-axtarış tədbirləri nəticəsində qətli törədən tutularaq istintaqa təhvil verilib.

Orxan Quliyevin 5 dəfə evli olduğu da məlum olub.

**Kişilər!!! Axırıncı şans!!!**

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağıdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi** *(**enurez**)*
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, qulunclarm dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**

**Elan**

**Zümrüd Braynd Qubad qızının adına olan Bakı şəhəri, Xəqani küçəsi, ev 20 mənzil 6 mənzilin kupçası itdiyi üçün etibarsız sayılır.**

**Elan**

**Qəbələ rayonunun Vəndam kəndində gözəl bir meyvə bağı satılır. 60 sot sahəsi var, 86 ağac, qoz, şabalıd, qızıl əhmədi alması, fındıq, hamısı bar verir. Bağ dağ ətəyindədir, kvadratdır, qazı, işığı, suyu var. Çox gözəl bağdır. Xeyir iş səbəbindən çox münasib qiymətə satılır.**

**Əlaqə telefonu: (070) 335-90-15.**

**Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ**

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gözləmədən - lateks hələ qoyulması.*

SƏLİMOV FƏRMAN
Tel: (055) 776-70-34

YENİ MÜSAVAT

Son səhifə

N 143 (6464) 1 iyul 2016



# “Coca-Cola”nın xətrinə özünü həlak elədi

Los Anceles sakini Corc Prior bir ay ərzində on banka “Coca-Cola” içkisi içib. O, bununla həmin içkinin səhhətinə necə təsir göstərəcəyini bilmək istəyib. Bu barədə lenta.ru saytı “The Daily Mirror”a istinadən xəbər verir. 50 yaşlı kişi bildirib ki, onu xüsusən də sözügedən içkinin tərkibindəki şəkər dozasının orqanizmə göstərdiyi təsir maraqlandırıb. Eksperimentin sonlarına yaxın Prior qeyd edib ki, 76 kilodan 86 kiloya qədər kökəlib. Kişinin arterial təzyiqi isə 129/77-dən 145/96-ya qədər yüksəlib. Qeyd edilir bu göstəricilər normadan yüksəkdir. Bunların ucbatından insanlarda ciddi ürək xəstəlikləri və insult riski yüksəlir. Piror qeyd edib ki, bir müddət keçəndən sonra onda həmin içkiyə qarşı ciddi asılılıq yaranıb. Bundan başqa, “nəsə şirin bir şeylər yemək” ehtiyacı da get-gedə artıb. O, daha öncə belə hal yaşamadığını qeyd edir. Bununla yanaşı, amerikalı qeyd edib ki, o bu təcrübə ilə insanları yedikləri şəkərin onlara nə qədər ziyan vurması barədə düşünməyə sövq etmək istəyib. 100 qram miqdarındakı “Coca-Cola”da 10.2 qram şəkər var. Kampaniyanı bir neçə dəfə tərkibində çox şəkər olduğuna görə ittiham ediblər.

# 10 yaşı var, çəkisi 192 kiloya çatıb

İndoneziyada yaşayan 10 yaşlı oğlan 192 kiloqram ağırlığındadır. Artıq o, dietaya başlayıb. Bu barədə “Daily Mail” yazıb. Nəşr onu “dünyanın ən kök uşağı” adlandırıb. İndən belə onun yeməyi ancaq qəhvəyi rəngli düyü olacaq. Arya Permana adlı oğlan həmin vaxta qədər gündə 5 dəfə yeyirdi. Qeyd olunur ki, oğlanın iştahı iki böyük kişinin iştahına bərabərdir. Artıq çəkiyə görə indoneziyalı oğlan rahat hərəkət edə bilmir və bu səbəbdən də məktəbə getmir. Uşaq nəfəs alma məsələsində çətinlik çəkir və tez yorulur. Köklük uşağın səhhətinə də mənfi təsir edir. Ananın sözlərinə görə, hətta bu, onun ölümü ilə nəticələnə bilər. Odur ki, hətta geyimini təkbaşına geyinə bilməyən uşağın dietaya başlaması qaçılmaz sayılıb.



# İt və pişik yeməklərini oğurladılar

Qazaxıstanın Pavlador şəhərində naməlum maskalılar zoomaqazinə hücum ediblər və malların bir hissəsini oğurlayıblar. Oğrular iki torba (hərəsi 15 kiloqram olmaq üzrə) it yeməyi, eyni zamanda bir neçə kiçik qutu heyvan yeməyi oğurlayıblar. Mağazanın içərisində quraşdırılmış videokamera üzü bağlı oğruların mağazaya necə girməsini qeydə alıb. Oğrular hadisə yerində yarım saat olublar. “Biz heyvanları zoomağazada saxlamırıq, çünki bu məkan bir qayda olaraq heyvan yeməkləri üçündür” bunu da mağaza sahibi deyib. Ümumi oğurlanan malların qiyməti 200 dollara yaxın olub. İşi araşdıran polislər isə hesab edir ki, bu işi görənlər klassik oğrular yox, imkansız heyvan sahibləri olub. Çünki onlar ancaq it və pişik yeməkləri oğurlayıblar. Ehtimal olunur ki, oğrular çoxlu sayda it və pişik saxlayırlar.





# Onlar arvadlarını çiyinlərində daşıyıb, çempionat keçirirlər

Men ştatındakı Nyuri şəhərində “arvadları çiyində daşımaq” üzrə hər il keçirilən çempionat baş tutub. Cütlüklərə 278 metrlik məsafəni minimal müddətdə keçmək təklif olunub. Qaçış zamanı onlar bir neçə maneəni dəf etməli olublar. Müsabiqənin qalibləri Cessi Voll və Kristina Arselault adlı cütlük olub. Lenta.ru saytının xəbərinə görə, onlar 2015-ci ilin iyununda toy etmək istəyirlər. Buna baxmayaraq, təşkilatçılar onlara bu qaçışda iştiraka icazə veriblər. Qaliblər gələn il İsveçdə keçiriləcək çempionatda iştirak etməyi planlaşdırırlar. Nyuridə keçirilən 13-cü çempionatda hər il Cənubi Amerikadan qatılırlar. Kişilər mükafat olaraq pivə, qadınlar isə çəkilərindəki hər kiloya görə 11 dollardan pul qazanır.




**QOÇ** - Səfərlər planınız varsa, onu bəri başdan təxirə salın. Çünki ulduzlar bu təqvimdə sizə kifayət qədər ciddi işlər həvalə edəcək. İşgüzar sövdələşmələrdə sizi müvəffəqiyyət gözləyir.

**BUĞA** - Bir çox məsələlərdə səhvlərə yol verirsiniz. Özünüzə aludə olmayın. Bəzən ətrafınızdakılardan məsləhət almağı da unutmayın. Axşamüstü maraqlı görüşlərin iştirakçısı ola bilərsiniz.

**ƏKİZLƏR** - Reallıqdan uzaq düşməyin. Bütün planlarınızı yalnız xəyalınızda reallaşdırmayın. Yaxşı olar ki, konkret fəaliyyətə keçəsiniz. Saat 15-dən sonra heç bir mübahisəyə yol verməyin.

**XƏRÇƏNG** - Fəaliyyətlə bağlı gərginliyiniz mümkündür. Yaxşı olar ki, bütün vacib işlərinizi təxirə salasınız. Riskli pul sövdələşmələrindən, məxfi danışıqlardan uzaq olmağa çalışın.

**ŞİR** - Şəxsi işlərinizdə əsaslı dönüş yaratmaq üçün şanslarınız var. Taleyinizdə əhəmiyyətli rol oynaya biləcək adamlarla əlaqələri dərinləşdirin. Bu gün səfərə çıxmaq da uğurludur.

**QIZ** - Bəxtinizdə kifayət qədər uğurlu bir tarix var. Əzmkarlığınızı artırmaqla bu müvəffəqiyyəti özünüzə və özünüzü ona yaxınlaşdıra bilərsiniz. Axşamsa qonaq getməyə çalışın.

**TƏRƏZİ** - Son zamanlar cidd-cəhdlərinizin boşa çıxması sizi məyus etməməlidir. Çünki bu dünyada hər kəsin bir şansı var. Siz də gözləməlisiniz. Bu günsə yalnız adi işlərin həlli ilə məşğul olmalısınız.

**ƏQRƏB** - Ümumi ovqatınızda gərginlik olsa da, qarşınızda duran vəzifələrin öhdəsindən gələcəksiniz. Günün ikinci yarısında isə şəxsi büdcənizdə müəyyən qədər artım ola bilər.

**OXATAN** - Uğurlu nəticəsinə tam əmin olmadığınız məsələlərə girişməyin. Yoxsa xoşagəlməzliklə qarşılaşacaqsınız. Bu təqvimdə kənardan kiminsə məsləhətilə addım atmamalısınız.

**OĞLAQ** - Təcrübəli insanların köməyinə ehtiyacınız olduğundan Göy qübbəsi sizə kömək göstərəcək. Odur ki, ruh düşkünlüyünə qapılmayın. Sənədlərlə bağlı problemləri aradan qaldırın.

**SUTÖKƏN** - Qarşılıqlı əlaqələrdə tədbirli olmağa çalışın. Əks təqdirdə müsahibləriniz tərəfindən aldadıla bilərsiniz. Qarşınızda gözəl perspektivlər durur. Odur ki, ruh düşkünlüyündən qurtulun.

**BALIQLAR** - Qarşılıqlı münasibətlər baxımından uğurlu olsa da, maddi cəhətdən mübahisəli bir gün yaşayacaqsınız. Özünüzü maksimum təmkinli aparın. Haqqınızı qanunlar çərçivəsində tələb edin.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Ən çox televizora baxan xalq... onlardır



İngiltərənin “Daily Mail” internet portalının məlumatına əsasən, Bolqarıstan əhalisinin 43 faizi hər gün televizor qabağında orta hesabla üç saat vaxt keçirir. Bu rəqəm Avropada televizordan asılı adamların ən çox məhz Bolqarıstanda olduğunu sübut edir. Lenta.ru saytının xəbərinə görə, araşdırma “European Social Survey” təşkilatı tərəfindən Avropanın 30 ölkəsində aparılıb. Bolqarıstandan sonra ikinci yerdə Böyük Britaniya, üçüncü yerdə isə İrlandiyadır. Avropada televizordan asılı olan adamların orta sayı 21 faizə bərabərdir.

Alimlərin son araşdırmasına görə, hər gün televizora altı saat baxan adamların ömrü 5 il azalır.

**Səhifəni hazırladı: SELCAN**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

Lisenziya N: B 114
SAYI: 4.750

“Yeni Müsavat”ın kompüter mərkəzində yığılıb, səhifələnib, “Azərbaycan” nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.